DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 10 (372) / OKTYABR 2022-Cİ İL



Bu gün bizim rəsmi mərasimimiz Cəbrayıl şəhərində keçirildi. Əslində, Cəbrayıl şəhəri yoxdur, çünki bax burada, oturduğumuz yerdə binalar olub, insanlar yaşayıb, həyat qaynayıb. Amma erməni işğalı dövründə ermənilər bizim bütün şəhərlərimizi, kəndlərimizi yerləbir etmişlər. Cəbrayıl şəhərindən bax bu dağılmış binalar qalıb. Bu dağıntılar Birinci Qarabağ savaşında deyil, məhz işğal dövründə ermənilər tərəfindən törədilmişdir. Görün onlarda Azərbaycan xalqına qarşı nə qədər nifrət var idi ki, bütün binaları yerlə-yeksan etdilər. Bunun əsas məqsədi ondan ibarət idi ki, azərbaycanlılar heç vaxt bu torpaqlara qayıtmasınlar, qayıtmağa yer olmasın. Ancaq biz qayıtmışıq, qan tökərək qayıtmışıq, savaşaraq, döyüşərək qayıtmışıq və bu gün artıq həyat bu bölgəyə qayıdıb, Ağalı kəndinin timsalında biz bunu görürük. Dünən mən Ağalı kəndində idim, məktəbə getmişdim. Məktəbdə 70 uşaq oxuyur. Yəni, o uşaqların heç biri buranı görməyib. Hətta onların bir çoxunun valideynləri də işğal dövründə doğulub, bir çoxları işğal baş verəndə özləri uşaq idi. Amma onlar qayıdıblar. Çünki torpaq çəkir, Vətən çəkir və hamımız qayıdacağıq. Bütün keçmiş məcburi köçkünlər qayıdacaqlar. Biz onların qayıdışı üçün əlimizdən gələni edirik, gecə-gündüz çalışırıq və bu bərpa-quruculuq işlərində türk qardaşlarımız bizimlə bir yerdədirlər.

Bu gün Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təntənəsidir. Türkiyə kimi qüdrətli ölkə bizim qardaşımızdır, bu, bizim üçün böyük xoşbəxtlikdir. İkinci Qarabağ savaşı, savaşdan sonrakı dövr bu birliyi daha da gücləndirdi. Keçən il biz Şuşada Şuşa Bəyannaməsini imzaladıq və Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldu. Bütün sahələrdə müttəfiq oldu və bu, həm xalqlarımıza ciddi gözaydınlığıdır, eyni zamanda, bölgəyə və dünyaya ciddi mesajdır. Çünki Türkiyə-Azərbaycan birliyi bölgədə çox önəmli bir amildir. Bu, sülh, sabitlik amilidir. Ancaq, eyni zamanda, əgər kimsə yenə də bizə qarşı ədalətsiz hərəkət etmək istəsə, əlbəttə ki, bu amili ciddi nəzərə almalıdır.

…İkinci Qarabağ savaşından sonra Türkiyə-Azərbaycan qardaşlığı, birliyi daha da yüksək pilləyə qalxıb. Yəqin siz də görürsünüz ki, hər yerdə Azərbaycan və Türkiyə bayraqları bir yerdə dalğalanır. Bu, ürəkdən gələn duyğulardır, bu, əcdadlarımızdan qalan mirasdır, onların vəsiyyətidir və bu, zəmanəmizin tələbidir.

**Prezident İlham Əliyev**
Cəbrayıl, 20 oktyabr 2022-ci il

## HEYDƏR ƏLİYEV İRSİNƏ SADİQLİK NÜMUNƏSİ



Səh. 3

## BÖLGƏLƏRDƏ "DÜNYƏVİ CƏMİYYƏTDƏ DİNİN YERİ VƏ ROLU" MÖVZUSUNDA İKİGÜNLÜK KONFRANSLAR KEÇİRİLİB



Səh. 4

## AZƏRBAYCAN VAŞİNQTONDA KEÇİRİLƏN QLOBAL SÜLH VƏ TƏHLÜKƏSİZLİKLƏ BAĞLI BEYNƏLXALQ KONFRANSDA TƏMSİL OLUNUB



Səh. 5

## "DÜNYƏVİ DÖVLƏTDƏ DİNİ MAARİFÇİLİK İŞİNİN TƏŞKİLİ"



Səh. 6

# "MƏNƏVİ DƏYƏRLƏR VƏ DÖVLƏT SİYASƏTİ"





Oktyabrın 10-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun 5 illiyinə həsr olunmuş "Mənəvi dəyərlər və dövlət siyasəti" hesabat-konfransı keçirilib.

Tədbirdə çıxış edən Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra iqtisadi, siyasi, sosial, mədəni sahələrlə yanaşı, dini-mənəvi sahədə də inkişafına çox önəm verildiyini bildirib. Qeyd edilib ki, Ulu Öndər Heydər Əliyev hakimiyyəti dövründə dini-mənəvi sahədə çox mühüm addımlar atılıb.

Sonra Fondun 5 illik fəaliyyətinə dair videoçarx nümayiş etdirilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Fondun zamanın çağırışlarına uyğun olaraq yaradıldığını qeyd edib. Diqqətə çatdırıb ki, Fond beş il ərzində çox böyük yol keçib və Nizamnaməsində əksini tapan fəaliyyətini getdikcə genişləndirməkdədir.

Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin baş məsləhətçisi Əliheydər Zülfüqarov dünyada milli-mənəvi dəyərlərə bağlı xalqlar üçün öz bütövlüyünü qorumaq və onu gələcək nəsillərə ötürməyin ən önəmli məsələlərdən biri olduğunu qeyd edib. O deyib: "Milli mənəvi dəyərlərin təbliği bizim üçün də hər zaman öndə olub və Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması bu istiqamətdə atılmış ən önəmli addımlardan biri idi. Azərbaycançılıq ideologiyasının banisi Heydər Əliyevin həyata keçirdiyi siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və milli-mənəvi dəyərlərin gücləndirilməsinə xidmət edir. Məhz mənəvi dəyərlərə sıx bağlı olan gənclərimiz 2020-ci ildə Ali Baş Komandanın ətrafında sıx birləşərək torpaqlarımızı işğaldan azad etdilər. Bu, onu göstərir ki, xalqımız mənəvi dəyərlərinə önəm verir və onunla fəxr edir".

Milli Məclisin deputatı Ceyhun Məmmədov isə bildirib ki, Azərbaycanda dini sahədə çox uğurlu siyasət aparılır və dəyərlərimizin inkişaf etdirilməsi yolu seçilib. Biz dəyərlərimizi qoruyur və təbliğ edirik.

Digər çıxış edənlər Fondun mənəvi dəyərlərin təbliği istiqamətində gördüyü işləri yüksək qiymətləndirib, gələcək fəaliyyətində uğurlar arzulayıblar.

Sonda fərqlənən əməkdaşlar Fəxri fərmanla təltif olunublar.

# DÖVLƏT KOMİTƏSİNDƏ İCLAS KEÇİRİLİB



Oktyabrın 11-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və tabeliyindəki qurumların rəhbər vəzifəli şəxsləri, Mərkəzi Aparat, bölgə şöbə müdirlərinin iştirakı ilə cari və görüləcək işlərlə bağlı iclas keçirilib.

DQİDK sədri Mübariz Qurbanlı gündəlikdəki məsələlər barədə ətraflı məlumat verib. Bildirib ki, dövlət-din münasibətləri strategiyası ölkəmizdə yaşayan müxtəlif dini inanclara sahib vətəndaşlarımız arasında mövcud olan tolerantlığın gücləndirilməsi, milli-mənəvi dəyərlərimizin qorunması və inkişaf etdirilməsinə xidmət edir. Respublikamızın bütün şəhər və rayonlarında milli-mənəvi, dini dəyərlərimizin, həmçinin Azərbaycanın tolerant, multikultural ənənələrinin təbliği, təşviqi üçün çox böyük işlər görülür. O, bu istiqamətdə aparılan maarifləndirmə işinin effektivliyinin artırılmasının önəmini vurğulayaraq kütləvi informasiya vasitələri və sosial medianın imkanlarından istifadə edilməsinin vacibliyini diqqətə çatdırıb. M.Qurbanlı cəmiyyətimizdə dinlərarası, tolerant münasibətlərinin inkişafında, habelə milli maraqlarımıza, milli və dini birliyimizə ziyan vurmaq istəyənlərə qarşı din xadimlərinin aktiv olmalarının zəruriliyini dilə gətirib.

Çıxışı zamanı "Şuşa İli" çərçivəsində Dövlət Komitəsi və tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən həyata keçirilən layihələrdən söz açan DQİDK sədri Prezident cənab İlham Əliyevin Sərəncamı əsasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsinin önəminə toxunub. Ulu Öndərimizin irsində milli-mənəvi və tolerant dəyərlərin mühüm yerə malik olduğunu qeyd edərək dahi şəxsiyyətin zəngin irsinin tədqiqi və təbliği, habelə ölkəmizin dövlət quruculuğu prosesində Ümummilli Liderin rolunun və xidmətlərinin gənc nəslə çatdırılmasının xüsusi önəm daşıdığını vurğulayıb. Xüsusi olaraq qeyd edib ki, Komitənin növbəti il üçün Tədbirlər Planında milli-mənəvi, dini dəyərlərimizə qayıdış və dəyərlərin təbliği, o cümlədən inkişafında Ümummilli Lider Heydər Əliyevin rolundan, tolerant və multikultural ənənələrə verdiyi töhfələrdən bəhs edən layihələr yer alacaq.

İclasda həmçinin "İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi Qaydası"na əsasən görülən işlərə toxunulub, müvafiq tapşırıq və tövsiyələr diqqətə çatdırılıb.

# YEVLAXDA VƏTƏNDAŞ QƏBULU KEÇİRİLİB



Prezident İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu keçirilir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin həlli istiqamətində müvafiq tədbirlər görülür.

Oktyabrın 19-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Yevlax şəhərində yerləşən Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib. Qəbulda Yevlax, Mingəçevir şəhərləri, eləcə də Ağdaş, Bərdə rayonlarından olan sakinlərin müraciətlərinə baxılıb.



Qəbuldan əvvəl Komitə sədri Mübariz Qurbanlı və Şəhər İcra Hakimiyyətinin başçısı Anar Tağıyev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin abidəsini ziyarət ediblər. Abidə önünə gül dəstələri qoyulub, Ulu Öndərin xatirəsi ehtiramla yad olunub.

Qəbula gələn vətəndaşların Dövlət Komitəsinin səlahiyyət dairəsinə aid müraciətləri Komitənin müvafiq bölgə şöbəsinin məsul şəxsinin iştirakı ilə dinlənilib, ərizələri qəbul edilərək, müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

# HEYDƏR ƏLİYEV İRSİNƏ SADİQLİK NÜMUNƏSİ

*YAP İdarə Heyətinin üzvü, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının yap.org.az saytına müsahibəsi*



**- Mübariz müəllim, 2003-cü il oktyabrın 15-də Azərbaycanda keçirilmiş prezident seçkilərində xalq öz səsini Ulu Öndər Heydər Əliyevin siyasi kursunun davam etdirilməsinə verdi. Bu seçimi hansı amillər şərtləndirdi?**

- Tarixdən məlum olduğu kimi, elə müdrik şəxsiyyətlər vardır ki, onlar zaman və məkan anlayışına, milli ölçülərə sığmayaraq dünya miqyasında tanınır və qlobal səviyyədə örnək olurlar. Bu baxımdan Ulu Öndər Heydər Əliyev uzaqgörən siyasəti ilə dünya tarixində dərin iz qoymuş dahi lider, müdrik şəxsiyyətdir. Azərbaycanın tərəqqisi naminə yorulmaz fəaliyyət göstərməsi və bu sahədə böyük uğurlar əldə etməsi Heydər Əliyevin liderliyini səciyyələndirən əsas xüsusiyyətlərdən biridir. Heydər Əliyev hələ sovet dövründə respublikamıza rəhbərlik etdiyi illərdə böyük müdrikliklə Azərbaycanın gələcəkdə müstəqil dövlət kimi yaşamasını təmin edəcək sosial-iqtisadi və milli-mənəvi bünövrənin yaradılması üçün mühüm addımlar atmışdır. Ulu Öndər cəmiyyətin bütün sahələrinin inkişafını nəzərdə tutan islahatların konseptual əsaslarını və başlıca hədəflərini müəyyən etmişdir.

Məhz Heydər Əliyev dühası Azərbaycanın müstəqilliyinin bərpasının ilk illərində xalqımızı üzləşdiyi ağır sosial-iqtisadi, siyasi və mənəvi-psixoloji böhrandan xilas etdi. Onun uzaqgörən siyasəti sayəsində ölkəmizdə ictimai-siyasi sabitlik bərqərar oldu, yeni iqtisadi-siyasi sistemə keçidin uğurla reallaşması üçün genişmiqyaslı islahatlar həyata keçirildi. Bütün bunların nəticəsində müstəqil, demokratik dövlətin siyasi təsisatları və bazar iqtisadiyyatı münasibətlərinə əsaslanan sosialyönümlü iqtisadi sistem formalaşdırılaraq inkişaf etdirildi, milli iqtisadiyyatın dünya iqtisadiyyatına inteqrasiyası təmin olundu. Davamlı və dinamik xarakter daşıyan islahatlar mahiyyət etibarilə inkişafın yeni - Azərbaycan modelini yaratdı.

Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə respublikamızın keçdiyi inkişaf yoluna, qazandığı nailiyyətlərə nəzər salmaq kifayət edir ki, onun sözün əsl mənasında böyük zirvələr fəth etdiyini, dünya birliyində söz və nüfuz sahibinə çevrildiyini görək. Müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin ən böyük xidmətlərindən biri siyasi varisi kimi cənab İlham Əliyevi xalqımıza bəxş etməsi olmuşdur ki, bu da Azərbaycanın tərəqqisi üçün böyük tarixi əhəmiyyət daşıyır. Cənab İlham Əliyev həm Azərbaycan Respublikasının Prezidenti, həm də Yeni Azərbaycan Partiyasının sədri kimi Heydər Əliyev yolunu böyük uğurla davam etdirir. Azərbaycanın sürətli və davamlı inkişaf yolu ilə irəliləməsi Prezident İlham Əliyevin Heydər Əliyev irsinə sadiqliyi ilə sıx şəkildə bağlıdır. Bununla əlaqədar olaraq Prezident İlham Əliyev bildirmişdir: "Mən 2003-cü ildə prezident seçkiləri ərəfəsində və seçkilərdən sonra andiçmə mərasimində demişdim ki, Azərbaycanın gələcək uğurları Heydər Əliyevin siyasəti ilə bağlıdır. Bu siyasətə alternativ yoxdur. Yalnız bu siyasət Azərbaycanı uğurlu gələcəyə aparacaqdır. Həyat və bizim fəaliyyətimiz, Heydər Əliyevin davamçılarının fəaliyyəti bunu sübut etdi".

Prezident İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi Ulu Öndərin xalqımız qarşısında göstərdiyi tarixi fəaliyyətə və onun siyasi irsinə verilən yüksək dəyərin parlaq ifadəsidir. Bütün bunlar sübut edir ki, Heydər Əliyev xalqımızı mürəkkəb tarixi-siyasi sınaqlardan uğurla çıxarmış və ardıcıl, qətiyyətli siyasət aparmaqla onu müstəqilliyə qovuşdurmuş müdrik şəxsiyyətdir. Xalqımız yeni əsrə və minilliyə məhz Heydər Əliyev irsinin və ideyalarının işığında qədəm qoymuşdur. Davamlı inkişaf edən Azərbaycan dövlətinin uğurları Heydər Əliyev yolunun təntənəsidir.

**- Prezident İlham Əliyevin adı sabitlik və inkişaf anlayışları ilə assosiasiya olunur...**

- Heydər Əliyevin siyasi irsinin qorunaraq zənginləşdirilməsi, müasir dövrün çağırışlarının obyektiv qiymətləndirilməsi Azərbaycanın bugünkü tərəqqisini şərtləndirən mühüm faktorlardır. Yeni tipli siyasi lider və dövlət rəhbəri kimi dünyada böyük nüfuz qazanmış Prezident İlham Əliyev inamla xalqımızı Heydər Əliyevin ideyaları ətrafında birləşdirir. Heydər Əliyevin siyasi kursunu zamanın tələbinə uyğun şəkildə, məharətlə davam etdirən Prezident İlham Əliyevin apardığı siyasət özündə xalqımızın milli maraqlarını əks etdirir. Azərbaycanın iqtisadi inkişafa malik olması, sosial, humanitar, hərbi və digər sahələrdə böyük nailiyyətlər əldə etməsi onun dünya birliyində mövqeyini gücləndirir. Milli və dini mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşın hüquqlarının qorunması, müxtəlif millətlərin mədəniyyətlərinin və adət-ənənələrinin inkişafına şərait yaradılması vətəndaş həmrəyliyini möhkəmləndirir.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin yüksək liderlik, sərkərdəlik keyfiyyətlərinə malik olması həmişə olduğu kimi, 44 günlük Vətən müharibəsi dövründə də xalqımızın maraqlarını ifadə edən qətiyyətli siyasət yürütməsi və təcrübəli idarəetmə bacarığına malik olması ilə bir daha öz təsdiqini tapdı.

**- 44 günlük Vətən müharibəsində möhtəşəm Qələbə qazandıq və yeni reallıqlar yaratdıq. Tarixi Zəfərin əhəmiyyəti və perspektivlər barədə nə deyə bilərsiniz?**

- Prezident İlham Əliyev Ermənistanın işğalçılıq siyasəti nəticəsində 30 il ərzində şəhərləri, kəndləri xarabalığa çevrilən, yeraltı, yerüstü sərvətləri talanan, tarixi, dini abidələri təhqir olunan, insanları didərgin salınan, düşmən tapdağında qalan Vətən torpaqlarının xilaskarı kimi adını tarixə yazdı. Dövlət başçısı tərəfindən müdrik daxili və xarici siyasətin aparılması, xüsusilə davamlı sosial-iqtisadi inkişafa nail olunması, Azərbaycanın Silahlı Qüvvələrinin gücləndirilməsi, milli birliyin və həmrəyliyinin möhkəmləndirilməsi, ölkəmizin dünya birliyində qətiyyətli mövqe tutması istiqamətində görülən işlər Vətən müharibəsində qələbənin əldə edilməsi üçün böyük əhəmiyyət daşıdı. Müharibə dövründə xalqımız "Dəmir yumruq" əməliyyatı ətrafında sıx birləşdi.

Bu gün yaşından, cinsindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, ölkə xaricində və daxilində yaşayan, doğma Vətənini sevən azərbaycanlılar Prezident İlham Əliyevin siyasi, iqtisadi, mədəni və sosial siyasətini fəal şəkildə dəstəkləyir. Azərbaycanın dövlət başçısı təcrübəli və praqmatik siyasətçi kimi ümummilli və qlobal məsələləri böyük peşəkarlıqla həll edir, hadisə və proseslərin axarını əvvəlcədən müəyyənləşdirərək gələcəyin tarixini yazır, parlaq zəkası, iti mühakimə qabiliyyəti, möhkəm xarakteri və mürəkkəb vəziyyətlərdə düzgün seçim etməsi ilə dünyanın tanınmış dövlət xadimləri içərisində xüsusi yer tutur. Prezident İlham Əliyev xalqımızın həyatında böyük dəyişikliklər yaradan tarixi vəzifələrin həyata keçirilməsi yükünü və məsuliyyətini daşıyaraq milli maraqları ifadə edən siyasət həyata keçirir. Azərbaycan Prezidentinin cəmiyyətin bütün sahələrində olduğu kimi, sivilizasiyalararası dialoq, multikultural dəyərlərin qorunması, dini tolerantlığın inkişafı istiqamətində gördüyü işlər ölkəmizdə dini və etnik-mədəni müxtəlifliyin təmin edilməsində vacib rol oynayır. Bunun nəticəsidir ki, Azərbaycanda yaşayan müxtəlif millətlərin və dinlərin nümayəndələri 44 günlük Vətən müharibəsində Prezident İlham Əliyevin apardığı siyasətlə bağlı həmrəylik nümayiş etdirmişdir.

**- Mübariz müəllim, Prezident İlham Əliyevin siyasi kursunun çox mühüm istiqamətlərindən biri milli həmrəyliyin gücləndirilməsidir. Bu kontekstdə azərbaycançılıq məfkurəsinin təbliğinə və təşviqinə xüsusi önəm verilir. Rasional ideoloji siyasət Azərbaycana nə qazandırır?**

- Azərbaycançılıq məfkurəsi ölkəmizin tərəqqisinin əsasında dayanan milli ideoloji bünövrədir. Onun vasitəsilə cəmiyyətdə sabitlik və əmin-amanlıq təmin olunur, milli-dini münasibətlər demokratik normalarla tənzimlənir, vətəndaş həmrəyliyi möhkəmlənir. Təsadüfi deyil ki, Heydər Əliyev azərbaycançılıq məfkurəsini milli ideologiya səviyyəsinə qaldırmışdır. Bu gün Prezident İlham Əliyev azərbaycançılıq məfkurəsinin daha da zənginləşməsi istiqamətində fəal siyasət aparır. Məhz bunun nəticəsidir ki, ölkəmizdə dini konfessiyalar arasındakı çoxəsrlik qarşılıqlı etimad ənənəsi, dini-mədəni müxtəliflik qorunub saxlanılır, müxtəlif xalqların və millətlərin nümayəndələri Azərbaycan dövlətinin ətrafında sıx birləşmişdir. Azərbaycançılıq məfkurəsi humanist və bəşəri mahiyyət daşımaqla ölkəmizin davamlı inkişafı üçün əlverişli milli ideoloji zəmin yaradır.

Qürur hissi ilə deyə bilərik ki, milli kimliyin və özünüdərkin güclənməsi, multikultural və tolerant dəyərlərin, mili-dini münasibətlərin inkişafı azərbaycançılıq məfkurəsinin yaratdığı əlverişli ideoloji şəraitdən irəli gəlir. Prezident İlham Əliyevin bu sahədə apardığı siyasət etnik və dini mənsubiyyəti, mədəni dəyərləri və adət-ənənələrindən asılı olmayaraq ölkə vətəndaşları tərəfindən dəstəklənir. Milli birliyin təmin olunması və müxtəlif ictimai-siyasi qüvvələr arasında dialoqun, qarşılıqlı etimad mühitinin yaradılması istiqamətində Prezident İlham Əliyevin atdığı addımlar həm də azərbaycançılıq məfkurəsinin ictimai həyatda öz təsdiqini tapdığının təcəssümüdür.

# ŞAH SULTAN HÜSEYN MƏSCİDİNİN ƏTRAFINDA TƏMİZLİK İŞLƏRİ GÖRÜLÜB

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin dəstəyi, Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin təşkilatçılığı və Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin iştirakı ilə Novxanı qəsəbəsində yerləşən Şah Sultan Hüseyn məscidinin ətrafında təmizlik aksiyası həyata keçirilib.

Tədbir çərçivəsində XVII əsrdə inşa olunan məscidin ətrafı məişət tullantılarından təmizlənib, ərazidə abadlıq işləri aparılıb.

Qeyd edək ki, yerli əhəmiyyətli tarix-memarlıq abidəsi olan Şah Sultan Hüseyn məscidinin yaxın zamanda bərpasına başlanılması planlaşdırılır. Bunun üçün artıq hazırlıq işlərinə də başlanılıb.

Aksiya iştirakçıları daha sonra yenicə bərpa-konservasiya olunan XIX əsrdə inşa edilmiş hamama baxış keçiriblər. Tarixi abidənin turizm baxış obyekti kimi istifadə olunması planlaşdırılır. Tarixi abidələrin qorunması, ətraf-mühitin mühafizəsi, yaşıllıq zonalarının təmizlənib genişləndirilməsi, ekoloji tarazlığın bərpası, eləcə də vətəndaşlarımızın mədəni irs nümunələrinə diqqətinin daha da artırılması məqsədi daşıyan aksiyanın davamlı təşkil olunması nəzərdə tutulur.

# BÖLGƏLƏRDƏ "DÜNYƏVİ CƏMİYYƏTDƏ DİNİN YERİ VƏ ROLU" MÖVZUSUNDA İKİGÜNLÜK KONFRANSLAR KEÇİRİLİB



Oktyabrın 13-14-də Hacıqabulda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Hacıqabul Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Dünyəvi cəmiyyətdə dinin yeri və rolu" mövzusunda ikigünlük konfrans keçirilib.

Tədbirdə DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, Hacıqabul RİH başçısının birinci müavini Saleh Ələskərov, icra başçısının müavini Xuraman Məmmədova, DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin müdiri Sənan Xəlilov, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər.

RİH başçısının birinci müavini Saleh Ələskərov tədbiri giriş sözü ilə açaraq, son illər ölkəmizin bütün bölgələrində olduğu kimi, Hacıqabulda da dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği istiqamətində işlərin görüldüyünü diqqətə çatdırıb. S.Ələskərov bildirib ki, Ulu Öndər Heydər Əliyev və onun layiqli davamçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycanda ictimai-siyasi və dini durum sabitdir.

Daha sonra çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində görülən işlərdən danışıb. Vurğulayıb ki, Azərbaycanda dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir. Səyyad Salahlı dini konfessiyalar arasında tolerantlıq mühitinin dövlət səviyyəsində qorunub saxlanılmasının Ümummilli Liderin adı ilə bağlı olduğunu bildirib.

Gəncləri təhsilə, elmə, mənəvi dəyərlərimizə daha da bağlı olmağa çağıran Səyyad Salahlı DQİDK-nın fəaliyyəti barədə də ətraflı məlumat verib, Dövlət Komitəsinin digər dövlət qurumları ilə birgə respublikamızda həyata keçirdiyi maarifləndirmə tədbirlərindən danışıb.

***

Konfrans oktyabrın 14-də işini davam etdirib.

Tədbirdə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, Hacıqabul RİH-in başçısı Rüstəm Xəlilov, Hacıqabul rayon Ağsaqqallar Şurasının sədri Sahib Aslanov, QMİ-nin Salyan bölgəsi üzrə qazısı Hüsnü Həsənov və din xadimləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Hacıqabul RİH başçısı Rüstəm Xəlilov çıxışında dünyəvi, hüquqi dövlət olan və vətəndaş cəmiyyəti quruculuğu yolu ilə gedən Azərbaycanda dini dözümlülük, vicdan azadlığının təmin olunması istiqamətində atılan addımlardan danışıb. Vurğulayıb ki, görülən işlər milli-mənəvi və islami dəyərlərin təbliği və təşviqində, dini qurumlarla dövlət təşkilatları, eləcə də ayrı-ayrı dini konfessiyalar arasında sağlam münasibətlərin formalaşmasında müstəsna rol oynayır.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı isə çıxışında bildirib ki, dünyəvi dövlət kimi müasir, demokratik bir cəmiyyətə malik olan Azərbaycan özünün dövlət-din, cəmiyyət-din münasibətləri modeli ilə dünyanın ən yaxşıları sırasındadır. Dövlətimiz vətəndaşların vicdan azadlığının qorunması üçün üzərinə düşən bütün vəzifələri qətiyyətlə həyata keçirir. Bunun məntiqi nəticəsi olaraq ölkəmizdə dövlət-din münasibətləri müasir qanunvericilik səviyyəsində tənzimlənir, dini etiqad azadlığı tam qorunur, tolerantlıq daha da möhkəmlənir.



S.Salahlı Ümumilli Lider, dünya şöhrətli siyasətçi Heydər Əliyevin uzaqgörən və müdrik siyasətinin layiqli davamçısı Prezident İlham Əliyevin də hər zaman dini dəyərlərə böyük hörmət göstərdiyini və Azərbaycanın dünyada nümunəvi tolerant ölkə imicini qazanmasında əsas rol oynadığını iştirakçıların diqqətinə çatdırıb.

QMİ-nin Salyan bölgəsi üzrə qazısı Hüsnü Həsənov İslam dinində fərdin cəmiyyətdə necə davranmalı olmasının əsaslarını qeyd edib, tolerantlıq dini olan İslamın müasir cəmiyyətdə önəmli rolu olduğunu vurğulayıb.

***

Bu qəbildən olan növbəti tədbir oktyabrın 27-də DQİDK və Quba RİH-in birgə təşkilatçılığı ilə Quba rayonunda baş tutub.

Konfransda DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Anar Məmmədov, DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin müdiri Ramin Xudayev, ziyalılar, gənclər, din xadimləri və dini icma sədrləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini A.Məmmədov rayondakı dini durum barədə ətraflı məlumat verib və bu cür tədbirlərin keçirilməsinin əhəmiyyətini yüksək qiymətləndirib.

Daha sonra çıxış edən Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı vurğulayıb ki, dini və etnik müxtəliflik müstəqil Azərbaycanın ən böyük sərvətinə çevrilib. S.Salahlı bildirib ki, Azərbaycan İslam aləmində və dünya siyasi arenasında dinlərarası və mədəniyyətlərarası dialoqa önəm verir: "Fəxrlə deyə bilərik ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda multikultural dəyərlərin daha da inkişaf etdirilməsi, eləcə də etnik-dini müxtəlifliyin qorunması dövlət siyasətinin əsas istiqamətlərindən biridir".



S.Salahlı qeyd edib ki, Azərbaycan dövləti, o cümlədən Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən respublikamızın bütün regionlarındakı, həmçinin işğaldan azad olunmuş bölgələrdəki ziyarətgahlarımızın, dini ibadət yerlərinin bərpası, qorunması və yenidən qurulması istiqamətində işlərin həyata keçirilməsi ölkə rəhbərliyinin dini-mənəvi dəyərlərimizə hörmət və ehtiramının, diqqət və qayğısının bariz nümunəsidir.

***

Konfrans oktyabrın 28-də işini davam etdirib.

Tədbiri giriş sözü ilə RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini A.Məmmədov açıb.



Konfransda geniş məruzə ilə çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı qeyd edib ki, gənclərin biliklərə yönəlməsi, mütaliə etməsi, din haqqında doğru və etibarlı mənbələrdən məlumat alması onların radikal dini qruplaşmalara qarşı diqqətli olmalarının qarantıdır. Daha sonra Azərbaycandakı mövcud dövlət-din münasibətləri haqqında məlumat verən S.Salahlı bildirib ki, ölkəmiz dünyada müxtəlif dinlərin və mədəniyyətlərin qovuşduğu unikal məkan kimi tanınır. Azərbaycan qanunvericiliyinə əsasən hər kəsin vicdan azadlığı, o cümlədən dini azadlıqları ən yüksək səviyyədə qorunur.

Tədbirlərin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# "ŞUŞA MƏDƏNİYYƏTİNİN İNCİLƏRİ": AŞAĞI GÖVHƏR AĞA MƏSCİDİ




Mədəniyyət Nazirliyi tərəfindən "Şuşa İli" münasibətilə həyata keçirilən "Şuşa mədəniyyətinin inciləri" layihəsi çərçivəsində "Şuşanın memarlıq salnaməsi" bölməsi üzrə növbəti təqdimat qala-şəhərimizin Aşağı Gövhər Ağa məscidinə həsr olunub.

Aşağı Gövhər Ağa məscidi 1874-1875-ci illərdə İbrahimxəlil xanın qızı Gövhərağanın maddi vəsaiti ilə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən inşa edilib. Məscid xalq arasında Aşağı Gövhər Ağa kimi tanınıb.

1992-ci ilin mayında Şuşanın işğalı zamanı Aşağı Gövhər Ağa məscidinin binası və minarələri zirehli texnikanın atəşlərinə məruz qalaraq ciddi zədələnib.

Məscid Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli qərarı ilə "Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı"na daxil edilib.

Azərbaycan Ordusu 2020-ci il noyabrın 8-də Şuşa şəhərini işğaldan azad etdikdən sonra Aşağı Gövhər Ağa məscidində bərpa işləri həyata keçirilir.

# AZƏRBAYCAN VAŞİNQTONDA KEÇİRİLƏN QLOBAL SÜLH VƏ TƏHLÜKƏSİZLİKLƏ BAĞLI BEYNƏLXALQ KONFRANSDA TƏMSİL OLUNUB



Vaşinqtonda "Qlobal sülh və təhlükəsizlik naminə dinlərarası harmoniya" mövzusunda beynəlxalq konfrans keçirilib.

Konfrans ABŞ-nin Briqam Yanq Universitetinin tabeliyindəki Hüquq və Dini Araşdırmalar üzrə Beynəlxalq Mərkəzi, Amerika Katolik Universitetinin Kolumbus Hüquq Məktəbi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin birgə təşkilatçılığı ilə reallaşıb. Tədbirdə beyin mərkəzlərinin, müxtəlif dini qurumlar, fondların, eləcə də diplomatik korpusun nümayəndələri iştirak ediblər.

Amerika Katolik Universitetində təşkil edilən konfransda "Simon Wiesenthal" Mərkəzinin sədr müavini Abraham Kuper, ABŞ-nin Etnik Anlaşma Fondunun prezidenti Ravvin Mark Schneier, xoşməramlı səfir və BMT-nin Təcrübəçi və Təqaüdçülərinin Dünya Assosiasiyaları üçün Sülh və İnkişaf üzrə xüsusi elçisi keşiş Art Uilson, Türkiyənin ABŞ-dakı səfiri Hasan Murat Mercan, Vaad L'Hatzolas Nidchei Yisroel təşkilatının prezidenti Ravvin Efraim Hasenfild, Amerika Dəyanət Mərkəzinin direktoru professor Hafiz Ahmet Salih Bayraktar, professor Robert A.Destro, Bakı Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov və digərləri çıxış ediblər. Natiqlər "Davamlı İnkişaf və Sülh üçün Dinlərarası Harmoniya: Dini baxımdan çoxluq və azlıq anlayışı" və "Multikultural və dini təhlükəsizliyin qorunmasında dinlərarası dialoqun rolu" mövzularında öz fikirlərini bildiriblər.



Tədbir Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov və Azərbaycan Respublikasının ABŞ-dəki səfiri Xəzər İbrahimin bağlanış nitqi ilə başa çatıb.

Konfransda "Müxtəlif inanclar, ortaq dəyərlər" adlı fotosərgi də nümayiş etdirilib.

# "DİN VƏ İDEOLOJİ TƏHLÜKƏSİZLİK"



Oktyabrın 12-də Lənkəranda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) birgə təşkilatçılığı ilə "Din və ideoloji təhlükəsizlik" mövzusunda tədbir keçirilib.

Tədbirdə DQİDK-nın sədr müavini Səyavuş Heydərov, Lənkəran ŞİH başçısının birinci müavini Möhübbət Babayev və İcra Hakimiyyətinin nümayəndələri, DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri Qağayı Məmmədov, QMİ-nin bölgə qazısı Sədi Axundzadə, həmçinin rayonun din xadimləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Lənkəran ŞİH başçısının birinci müavini Möhübbət Babayev dövlətin dinə və din xadimlərinə qayğısından bəhs edib. Eyni zamanda Lənkərandakı dini durum barədə ətraflı məlumat verib.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Səyavuş Heydərov Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda ictimai-siyasi və dini durumun sabit olduğunu diqqətə çatdırıb. Dövlət Komitəsinin sədr müavini tarix boyu ölkəmizdə müxtəlif xalqların, etnik və dini qrupların, məzhəblərin nümayəndələrinin birgə, mehriban, vəhdət halında yaşadığını vurğulayıb.

Dini radikalizm və ekstremizmin fəsadlarından, eləcə də dini radikal qrupların fəaliyyətindən danışan natiq qeyd edib ki, bu cür tədbirlərin keçirilməsində əsas məqsəd cəmiyyəti dini mühitdəki tendensiyalar, xaricdən yönəlmiş təhdidlər, yad ideologiyaların ölkəmizə ixracına cəhdlər barədə məlumatlandırmaq və maarifləndirməkdir.

Sədr müavini deyib ki, bu gün dini radikal qrupların qarşılarına qoyulmuş əsas hədəf ictimai təhlükəsizlik, dinlər və məzhəblərarası vəhdət və s. kimi dəyərləri məhv etməkdir. Odur ki, dini radikalizmin cəmiyyətdə özünə yer tapmasının və yayılmasının qarşısının alınmasında milli-mənəvi dəyərlərə sıx şəkildə bağlılıq mühüm rol oynayır.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***

Analoji tədbir oktyabrın 17-də DQİDK və İsmayıllı Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə İsmayıllı rayonunda baş tutub.

Tədbirdə DQİDK-nın sədr müavini Səyavuş Heydərov, İsmayıllı RİH başçısının birinci müavini Mahmud Süleymanov, DQİDK-nın Şamaxı və Şəki bölgələri üzrə şöbə müdirləri Elnur Mehdiyev, Taleh Abdullayev, RİH-in əməkdaşları, QMİ-nin Qəbələ və İsmayıllı rayonları üzrə səlahiyyətli nümayəndələri, həmçinin İsmayıllı və Qəbələ rayonlarında fəaliyyət göstərən rəsmi din xadimləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan İsmayıllı RİH başçısının birinci müavini Mahmud Süleymanov rayondakı dini durum barədə məlumat verərək burada mövcud olan tolerant və multikultural mühitdən danışıb.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov dinin siyasiləşdirilməsinin milli təhlükəsizliyimizə və mənəvi dəyərlərimizə mənfi təsirlərindən bəhs edib. O, din sahəsində ölkəmizə olan təhdid cəhdlərinin qarşısının alınmasında vətənpərvər din xadimlərinin müstəsna rolu olduğunu vurğulayıb. Sədr müavini bildirib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-din münasibətləri sahəsində həyata keçirilən siyasi kursun Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmiz dünyada tolerant və multikultural dəyərlərin mövcud olduğu məkan kimi tanınır. O, həmçinin milli-mənəvi dəyərlərin qorunması və düzgün təbliği istiqamətində birgə fəaliyyətin inkişaf etdirilməsinin vacibliyinə toxunub.



Səyavuş Heydərov qanunvericilikdə edilmiş müvafiq dəyişikliklərə uyğun olaraq, din xadimlərinin təyinatı məsələsinə də toxunub. O, dini kadrların yetirişdirilməsinin vacibliyindən danışaraq bildirib ki, radikal dini qruplarla mübarizə, xaricdən yönəlmiş təhdidlər, cəmiyyətin yad ideologiyaların təsirlərindən qorunması istiqamətində dini təhsilli və savadlı kadrlara ehtiyac duyulur.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# PARİS KAFEDRAL MƏSCİDİ 100 İLLİYİNİ QEYD EDİB

Birinci Dünya müharibəsində həlak olmuş müsəlman əsgərlərə ehtiram əlaməti kimi tikilmiş Paris Kafedral məscidi 100 illiyini qeyd edib.

Birinci Dünya müharibəsi zamanı Fransa ordusunun 70 min müsəlman əsgəri həlak olub. Həmin əsgərlərin fədakarlığına hörmət əlaməti olaraq 1920-ci ildə Parisdə məscid, kitabxana və konfrans zalı da daxil olmaqla Müsəlman İnstitutunu nəzərdə tutan qanun layihəsi parlamentdə səsə qoyulur və qəbul edilir. 1922-ci ilin martında ibadət zalının Məkkə istiqamətində olması ilə bağlı qərar qəbul olunur. Həmin il oktyabrın 19-da hərbi sərkərdə və Fransanın Mərakeşdə müstəmləkəçiliyinin rəmzi siması olan marşal Uber Lyoteyin iştirakı ilə gələcək məscidin təməli qoyulur. Məscidin tikintisi 4 il davam edir və 1926-cı ildə məscidin rəsmi açılışı olur.

Prezident Emmanuel Makron Paris Kafedral məscidinin 100 iliyinə həsr edilmiş tədbirə qatılaraq məscidin önündə respublikanın müsəlman əsgərlərə minnətdarlığını əks etdirən lövhəni açıb.



# "DÜNYƏVİ DÖVLƏTDƏ DİNİ MAARİFÇİLİK İŞİNİN TƏŞKİLİ"



19-20 oktyabr tarixlərində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Goranboy Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə rayonun Faxralı kənd tam orta məktəbində "Dünyəvi dövlətdə dini maarifçilik işinin təşkili" mövzusunda seminar-treninq keçirilib.

Tədbirdə DQİDK-nın sədr müavini Gündüz İsmayılov, Goranboy RİH başçısının müavini Mirvari Ağamalıyeva, Dövlət Komitəsinin şöbə müdirləri Sadiq Mirzəyev, Həsən Məmmədov, QMİ-nin səlahiyyətli nümayəndəsi Anar Orucov, ziyalılar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Bu cür maarifləndirmə tədbirlərinin keçirilməsinin vacibliyinə toxunan RİH başçısının müavini Mirvari Ağamalıyeva rayonda dini durumun sabit olduğunu diqqətə çatdırıb.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Gündüz İsmayılov qeyd edib ki, xalqımız hər zaman digər dinlərin və millətlərin nümayəndələri ilə dost, qardaşlıq və sülh şəraitində yaşayıb ki, bu ənənə bu gün də davam etməkdədir. Bu baxımdan Azərbaycanda heç zaman dini və milli zəmində münaqişə baş verməyib. Müxtəlif konfessiyaların nümayəndələri dini etiqatlarını sərbəst şəkildə həyata keçirə bilirlər.

İslam dininin sülh, əmin-amanlıq, inkişaf, elm və təhsilə böyük önəm verdiyini diqqətə çatdıran G.İsmayılov onu da vurğulayıb ki, dinimizdə radikalizm və xurafat elementləri yoxdur: "Həm xurafat, həm də dini radikalizm cəmiyyət üçün zərərlidir. Bu istiqamətdə mübarizənin gücləndirilməsi və milli-mənəvi dəyərlərin qorunub saxlanılması məqsədilə dini maarifləndirmə işinin aparılması zəruridir. Eyni zamanda, Dövlət Komitəsi olaraq müvafiq qurumlarla birlikdə dini radikalizm və ekstremizmlə mübarizə tədbirləri həyata keçiririk". Sədr müavini qeyd edib ki, hansısa cəmiyyətdə təhsil və dini biliklər insanlara paralel şəkildə çatdırılmırsa, xurafatın yayılması qaçılmazdır.

QMİ-nin səlahiyyətli nümayəndəsi Anar Orucov mövzu ilə bağlı fikirlərini bölüşüb, sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

İkigünlük seminar-treninq işini müzakirələrlə yekunlaşdırıb.

***

Növbəti seminar-treninq 26-27 oktyabr tarixlərində Balakən rayonunda baş tutub.

İki gün davam edən tədbirdə fərqli din və məzhəb mənsubları arasında dözümsüzlük hallarına yol verilməməsi, dini icmaların fəaliyyətində tolerantlığın və multikulturalizmin gücləndirilməsi, cəmiyyətdə radikalizm meyillərinin qarşısının alınması və dini icmaların bu işə cəlb olunması baxımından ən səmərəli yol olan dini maarifləndirmə işinin əhəmiyyəti vurğulanıb.

Rayon İcra Hakimiyyəti (RİH) başçısının birinci müavini Turan Dibirov Balakəndəki mövcud dini durum barədə məlumat verərək rayon ictimaiyyəti ilə bu mövzunun müzakirə olunmasının maarifçilik baxımından son dərəcə əhəmiyyətli olduğunu vurğulayıb.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov çıxışında din və cəmiyyət, dövlət və din münasibətlərinin başlıca istiqamətlərinə toxunub, dövlətin dinə yanaşmasının əsas meyarlarını iştirakçıların diqqətinə çatdırıb. Cəmiyyətdə parçalanma yaratmaq istəyən qüvvələrin dindarlar arasında apardıqları təbliğatların əsas mahiyyətini geniş şəkildə izah edən sədr müavini dinin siyasiləşdirilməsinin, dinə xarici təsir və müdaxilələrin, dinə



xidmət adı altında tolerantlığın zəiflədilməsinə, məzhəblərarası qarşıdurmanın yaradılmasına səy göstərməyin, xurafatçı meyillərin yayılmasına cəhdlərin edilməsinin bu təbliğatların əsasını təşkil etdiyini bildirib. Sədr müavini, eyni zamanda bu kimi mənfi təzahürlərə qarşı effektiv mübarizə aparılması məqsədilə dini maarifçilik işinin düzgün metodlarla təşkili məsələlərinin zəruriliyinə toxunub.

RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Fariz Nəcəfov rayonda fəaliyyət göstərən dini icmalar barədə məlumat verərək din xadimlərinin üzərinə dinimizi, milli-mənəvi dəyərlərimizi düzgün təbliğ etmək kimi məsuliyyətli bir vəzifə düşdüyünü bildirib.

Qafqaz Müsəlmanları İdarəsinin Balakən rayon qazısı İbrahim İbrahimov vurğulayıb ki, Azərbaycanda hər bir dini etiqad sahibinin ibadətini yerinə yetirməsi üçün əlverişli şərait var. Ölkə vətəndaşlarının hamısı dini və milli dəyərlərimizi qorumalı və bizim birgə yaşamağımıza, həmrəyliyimizə mane olan, bizi bir-birimizdən uzaqlaşdıran radikal dini düşüncəyə qarşı ayıq-sayıq olmalıdır.

Seminar-treninq iştirakçıları maraqlandıran sualların cavablandırılması ilə işini yekunlaşdırıb.

# DQİDK YANINDA İCTİMAİ ŞURANIN NÖVBƏTİ İCLASI KEÇİRİLİB

Oktyabrın 12-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) yanında İctimai Şuranın növbəti iclası keçirilib. Dövlət Komitəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva DQİDK-nın fəaliyyətinin aktual istiqamətləri barədə danışıb. Bildirib ki, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 25 fevral 2022-ci ildə "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin 3-cü hissəsinə edilmiş dəyişikliyə və dövlət başçısının 11 mart 2022-ci il tarixli Fərmanına əsasən, İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadimlərinin təyin olunması Dövlət Komitəsinin səlahiyyətləri sırasına daxil edilib. Müvafiq dəyişikliklərə uyğun olaraq din xadimlərinin təyinatı ilə bağlı yeni qaydalar ictimaiyyətə təqdim olunub. 39 vakant



vəzifənin tutulması üçün 270 namizədin sənədi qeydiyyata alınıb. 02 -13 avqust tarixlərində keçirilən müsahibədə sənədi qeydə alınmış 270 namizəddən 251 nəfəri iştirak etmişdir. Müsahibədən uğurla keçən 133 nəfər içərisində ən yüksək bal toplayanlar təyinat alaraq fəaliyyətə başlayıblar. Şöbə müdiri, eyni zamanda maarifləndirmə işinin effektivliyini artırmaq məqsədilə Dövlət Komitəsinin sifarişi əsasında hazırlanan sənədli film və videoçarxlar haqqında məlumat verib.

DQİDK yanında İctimai Şuranın sədri Sevinc Alızadə bugünədək İctimai Şura tərəfindən keçirilən görüşlərə toxunaraq əlaqəli qurumların İctimai Şuralarının koordinasiyalı şəkildə fəaliyyət göstərməsinin zəruriliyini vurğulayıb.

Cari məsələlərin müzakirəsindən sonra Şura üzvləri ekspert qrupu və Vətəndaş Cəmiyyəti Dialoqu Platformasının yaradılması barədə qərar qəbul ediblər.

# DQİDK YANINDA İCTİMAİ ŞURANIN ÜZVLƏRİ BAKI ŞƏHƏRİ DAĞ YƏHUDİLƏRİ DİNİ İCMASINDA OLUBLAR

Oktyabrın 17-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) yanında İctimai Şuranın üzvləri Bakı şəhəri Dağ yəhudiləri dini icmasını ziyarət edib, dini qurumun fəaliyyəti ilə yaxından tanış olublar.

Görüşdə dini icmanın sədri Milix Yevdayev, DQİDK yanında İctimai Şuranın sədri Sevinc Alızadə və sədr müavini Çingiz Bayramov, üzvləri Rauf Zeyni, Vasif Sadıqlı, eyni zamanda Komitənin İctimaiyyətlə əlaqələr şöbəsinin müdir müavini Vüsalə Hüseynova iştirak edib.

İcma sədri Milix Yevdayev Azərbaycanda Dağ yəhudilərinin tarixi haqqında məlumat verib, dövlətin icmaya göstərdiyi qayğıya görə məmnunluğunu ifadə edib. Bildirib ki, müstəqilliyimizin bərpa olunmasından sonra ölkəmizdə yaşayan milli azlıqların, o cümlədən yəhudilərin həyatında yeni mərhələ başlayıb, milli azlıqların hüquq və azadlıqlarının qorunmasına, onların mədəniyyətinin inkişafına dövlət səviyyəsində dəstək verilməsi qeyri-islam dini icmaları, o cümlədən yəhudi icmaları qarşısında yeni imkanlar açıb. Prezident İlham Əliyevin Sərəncamı ilə hər il digər dini icmalara edildiyi kimi, yəhudi icmalarına da ayrılan maddi



vəsaitlər yüksək qayğı kimi qiymətləndirilir. Hər il yəhudi xalqının əlamətdar bayramları münasibətilə dövlət başçısı tərəfindən ölkəmizdə bütün yəhudi icmalarına təbrik ünvanlanması, sinaqoqların tikilməsi və bərpası əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan ənənənin yaşadılmasıdır.

İctimai Şura üzvləri Milix Yevdayevin, yəhudi icmasının ölkəmizdə multikultural, tolerant ənənələrin qorunması istiqamətinə, eləcə də Azərbaycan həqiqətlərinin təbliğinə verdiyi töhfələri yüksək qiymətləndiriblər. Eyni zamanda ölkəmizdə həyata keçirilən dövlət siyasətinin ölkədəki mövcud tolerantlıq mühitini daha da dərinləşdirdiyini, xalqların və dinlərin nümayəndələri arasındakı tarixi dostluq tellərini daha da möhkəmləndirdiyini bildiriblər.

Sonda sinaqoqun ibadət zalı ilə tanış olan Şura üzvləri bu cür görüşlərin keçirilməsinin əhəmiyyətini vurğulayıblar.

# "DÖVLƏT QULLUQÇULARININ ETİK DAVRANIŞ QAYDALARI" MÜZAKİRƏ OLUNUB



Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində "Dövlət qulluqçularının etik davranış qaydaları" mövzusunda tədbir keçirilib.

Mərkəzi Aparat və bölgələr üzrə şöbə müdirlərinin iştirakı ilə baş tutan tədbirdə çıxış edən DQİDK-nın Aparat rəhbəri Amil Cavadov dövlət qulluğu sahəsində həyata keçirilən uğurlu siyasətdən, habelə dövlətin idarə olunmasında və dövlət orqanlarının nüfuzunun artırılmasında dövlət qulluqçularının rolundan, dövlətin onlara göstərdiyi diqqət və qayğıdan söhbət açıb. Bildirib ki, hər bir dövlət qulluqçusu öz fəaliyyətində qanunun aliliyini, insan hüquqlarını, demokratik prinsipləri və yüksək etik davranış qaydalarını rəhbər tutmalı və əməl etməlidir. Bununla əlaqədar olaraq Dövlət Komitəsinin rəhbərliyi tərəfindən əməkdaşların etik davranış qaydalarına əməl etmələrinə ciddi nəzarət edildiyi də tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Tədbirin sonunda maraq doğuran məsələlərlə bağlı müzakirələr aparılıb.

# "AZƏRBAYCAN QADININ TOLERANT VƏ MÜTƏRƏQQİ CƏMİYYƏTİN FORMALAŞMASINDA ROLU"



20-21 oktyabr tarixlərində Göygöl rayonunda "Azərbaycan qadınının tolerant və mütərəqqi cəmiyyətin formalaşmasında rolu" mövzusunda seminar keçirilib.

Dini radikalizm, cəhalət və xurafata qarşı mübarizədə ən effektiv vasitə olan maarifləndirmə prosesində, eyni zamanda xalqımıza məxsus milli-mənəvi dəyərlərin təbliğində qadınların rolunun əhəmiyyətindən bəhs olunan seminarda fəal qadınlar, təhsil işçiləri, psixoloqlar, gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

RİH başçısının müavini – İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Kəmalə İbrahimova tədbiri giriş sözü ilə açaraq dini radikalizmə, xurafata qarşı mübarizədə, ailə idarəçiliyində, uşaqların təlim-tərbiyəsində qadınların mühüm rol oynadığını bildirib. Müstəqil dövlətimizin ali qanunları dövlət qadın siyasətinin həyata keçirilməsi üçün hüquqi müstəvidə böyük imkanlar açır. Ona görə də Prezident İlham Əliyevin diqqəti və qayğısı sayəsində bu gün ölkədə qadın hüquqlarının müdafiəsi sahəsində mühüm addımlar atılır.

Dövlət Komitəsinin Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova təhsilli qadının mütərəqqi cəmiyyətin formalaşmasında əvəzolunmaz rolunu vurğulayıb, milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və gələcək nəsillərə ötürülməsində üzərlərinə düşən vəzifələri qeyd edib. Qadınlarımızın cəmiyyətin dini savadlılığının artırılması, maarifləndirilməsi işində də aktiv olmalarının vacibliyinə toxunan E.Kərimova ölkəmizin tolerant və multikultural mühitinə yönəlmiş təhdidlərdən bəhs edib, cəmiyyətin hər fərdini, eləcə də qadınlarımızı bunlarla hərtərəfli mübarizə aparmağa çağırıb.

İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva bildirib ki, seminarın keçirilməsində məqsəd dini maarifçilik işinin həyata keçirilməsində, dini radikalizm və xurafatla mübarizədə qadınların fəal iştirakına dəstək vermək və bu sahədə onları məlumatlandırmaqdır. "Sosial mediada dinin təbliği" mövzusunda təqdimatla çıxış edən Y.Əliyeva dini radikalizmin ən geniş yayılmış təbliğat platformasının sosial şəbəkələr olduğunu bildirib. Vurğulayıb ki, dini radikal qruplar bütün vasitələrdən istifadə edərək öz zərərli fikirlərini yaymağa, cəmiyyətdə insanlar arasında dini və məzhəb ayrı-seçkiliyi yaratmağa cəhd edirlər. Şöbə müdiri deyib ki, bu risklərdən qorunmaq üçün məktəblilərin, yeniyetmələrin sosial şəbəkələrdən istifadəsinə ciddi nəzarət edilməlidir.

DQİDK əməkdaşı Aysel Abdullayeva isə çıxışında xurafatla mübarizədə qadınların rolu və dini xurafatın yaratdığı problemlərə toxunub.

Dövlət Komitəsinin sifarişi əsasında çəkilmiş "Erkən nikah sosial bəladır" adlı videoçarxın nümayiş edildiyi ikigünlük seminarın sonunda iştirakçıların sualları cavablandırılıb, Dövlət Komitəsi və tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən çap olunmuş ədəbiyyatlar iştirakçılara təqdim olunub.

***

Analoji tədbir 27-28 oktyabr tarixlərində DQİDK və Qax RİH-in birgə təşkilatçılığı ilə Qax rayonunda baş tutub.

RİH başçısının müavini – İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Vəfa Heydərova mövzunun aktuallığına diqqət çəkərək, xalqımızın mənəvi dəyərlərinin formalaşmasında və inkişafında qadınlarımızın böyük rolu olduğunu, eyni zamanda, Azərbaycan qadınlarının tariximizin bütün dövrlərində taleyüklü məsələlərin həll edilməsinə öz sanballı töhfələrini verdiyini qeyd edib. Bildirib ki, bu gün Azərbaycan qadınının fəaliyyəti ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın timsalında milli-mənəvi dəyərlərə söykənən və intellektual yüksəlişə xidmət edən ideyaların cəmiyyətdə daha da zənginləşməsinə və möhkəmlənməsinə yönəlib.



Dövlət Komitəsinin Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova çıxışında dini radikalizm, cəhalət və xurafata qarşı mübarizədə ən effektiv vasitə olan maarifləndirmə prosesində, eyni zamanda xalqımıza məxsus milli-mənəvi dəyərlərin təbliğində qadınların roluna toxunub. Qeyd edib ki, Azərbaycan qadını Şərqə məxsus milli-mənəvi və əxlaqi dəyərlərlə Qərbin mütərəqqi yeniliklərinin uğurlu vəhdətini özündə birləşdirərək cəmiyyətə öz töhfəsini verməkdədir. E.Kərimova dövlətimizin tolerant və multikultural mühitin inkişafı istiqamətində gördüyü işlərə toxunaraq, qadınlarımızın bu sahədə üzərlərinə düşən vəzifələrdən də danışıb.

İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva Prezident İlham Əliyevin diqqəti və qayğısı sayəsində bu gün ölkədə qadın hüquqlarının müdafiəsi sahəsində mühüm addımlar atıldığını bildirib. Vurğulayıb ki, müstəqil Azərbaycanda gender bərabərliyinin təmin olunması üçün möhkəm hüquqi baza var, bu gün qadının sosial vəziyyətinin yüksəlməsi daha parlaq surətdə cəmiyyətin bütün fəaliyyət sahələrində özünü büruzə verir.

DQİDK əməkdaşı Aysel Abdullayeva dini radikalizm, erkən nikah, xurafat və yaratdığı problemlər, eyni zamanda bütün bunlarla mübarizə istiqamətində həyata keçirilən tədbirlərdən danışıb, mövcud məsələlərlə bağlı statistik rəqəmləri vurğulayıb.

Dövlət Komitəsinin sifarişi əsasında çəkilmiş "Ailə dəyərləri" sənədli filminin nümayiş edildiyi ikigünlük seminarın sonunda iştirakçıların sualları cavablandırılıb.

# ŞOTLANDİYADA ÖLKƏNİN DİNİ TARİXİNƏ AİD NADİR ABİDƏ BƏRPA EDİLİB

"Christiantoday" xəbər verir ki, Şotlandiyada ölkənin dini tarixinə aid nadir abidə bərpa edilib. XVI əsrə aid kafedralın heraldika tağtavanını əvvəlki əzəmətinə qaytarmaq üçün 2 milyon funt sterlinq ayırılıb. Tağtavan Papa X Leo, Şotlandiya kralı V Ceyms, İngiltərə kralı VIII Henri və Avropanın bir çox digər krallarının da gerblərinin daxil olduğu bir-birindən parlaq 48 oyma gerbi əhatə edir.

Aberdindəki XVI əsrə aid Müqəddəs Machar Kafedralının heraldika tavanındakı gerblər orta əsr ağac oyma sənətinin ən gözəl nümunələrindən biri hesab olunur. 1520-ci ildə yepiskop Gavin Dunbarın xeyir-duası ilə tikilən bu kilsə möcüzəvi şəkildə Reformasiyanın keşməkeşli illərindən salamat çıxıb və indi dünyanın hər yerindən ziyarətçiləri cəlb edir.

Tağtavanın bərpasında fəal iştirak edən professor Devid Hevitt onun mənasını belə izah edir: "Belə bir heraldika tağtavanı kilsə binası üçün çox qeyri-adi bir şeydir. XVI əsrə aid bir çox kilsələrimiz qorunub saxlanılmışdır. Lakin Müqəddəs Machar Kafedralı ilk və əsas kilsə idi, buna görə də Şotlandiyanın və Qərbi Avropanın siyasi əzəmətini orada həkk etmək məqsədəuyğun hesab olunmuşdu. Burada Avropanın hər yerindən 48 gerb var, mərkəzi mövqedə Papanın gerbi durub, şimal tərəfində Avropa krallarının gerbləri, cənub tərəfində isə Şotlandiya krallarının gerbləri düzülmüşdür. Ümumilikdə bu, Papanın rəhbərliyi altında birləşmiş xristian dünyasının mesajıdır: kilsə hakimiyyəti hər iki tərəfdən dünyəvi hakimiyyətlər tərəfindən dəstəklənir və onların hamısı Allahın qüdrətinə tabedir. Orta əsr insanlarının asanlıqla oxuduğu və başa düşdüyü bu əzəmətli abidənin mənası belədir".

Kafedralın heraldika tağtavanının yaradılmasının 500-cü ildönümü Covid pandemiyası və təcili bərpa işləri səbəbindən təxirə salındığı üçün planlaşdırılandan iki il sonra qeyd edilib. Bayram proqramı çərçivəsində Şotlandiya Kilsəsinin Baş Assambleyasının moderatoru, ilahiyyat doktoru İenn Qrinsşildsin rəhbərliyi altında şükranlıq mərasimi keçirilib. Mərasimdə Şotlandiya kilsəsindən 250 qonaq, katolik və şotland ruhaniləri, Aberdin Universitetinin keçmiş moderatoru və prorektoru Ser İen Torrens, habelə gerbləri heraldika tağtavanında təmsil olunan bir sıra ölkələrin konsulluqlarının nümayəndələri iştirak ediblər.



# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

*2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İşğalda olan torpaqlarımızı azad etmək üçün böyük həsrətlə gözləyən xalqımızın növbəti erməni təcavüzünə qarşı göstərdiyi əsrarəngiz reaksiya – Vətənin müdafiəsi və ərazi bütövlüyünün bərpası naminə bir yumruq kimi birləşməsi həm də uzun illər ona edilən haqsızlığa qarşı döyüş ruhunun təcəssümü idi. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq şanlı tarix yazdılar. Ümumiyyətlə, torpağı Vətənə çevirən, onu müqəddəsləşdirən, özlərini bu yolda fəda edənlər şəhidlərdir. Bu səbəbdən onların hər birini tanımaq və tanıtdırmaq cəmiyyət olaraq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzeti 2021-ci ildəki ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.*



## Abdullayev Vüsal Şakir oğlu

Şəhid Abdullayev Vüsal Şakir oğlu 15 mart 1986-cı ildə Beyləqan rayonunun Sarısu qəsəbəsində dünyaya gəlib. O, 1993-cü ildə Sarısu kənd tam orta məktəbin 1-ci sinfinə daxil olub, 2004-cü ildə həmin məktəbin 11-ci sinfini bitirib. Vüsal 2004-cü ildə Beyləqan rayon hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. O, Silahlı Qüvvələrin Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissəsində kəşfiyyatçı kimi xidmət edib.

Hələ gənc yaşlarından texnikaya maraq salan Vüsal atası Şakir kişidən öyrəndikləri sayəsində hərbi xidmətdə ikən texniki problemləri olan nəqliyyat vasitələrini təmir edər, saz vəziyyətə gətirərmiş. O, ovçu olan atasından silah sursatlarla davranış qaydalarını da öyrənibmiş. Öyrəndikləri həm əsgərliyi dövründə, həm də gələcəkdə qatılacağı 44 günlük Vətən müharibəsində köməyinə çatacaqdı. Vüsal uğurla başa vurduğu xidmətinin ardından kəndlərinə qayıdıb, bir müddət müxtəlif sahələrdə çalışdıqdan sonra işləmək üçün Bakı şəhərinə gedib.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti (SHXÇDX) tərəfindən Vüsala səfərbərliyə hazır olması ilə bağlı məlumat göndərilib. Bundan sonra Beyləqana gələn Vüsal sentyabrın 30-da qeydiyyatdan keçib və həmin gün Ağcabədidə yerləşən "N" saylı hərbi hissəyə yollanıb. Oradan isə cəbhənin Füzuli istiqamətinə aparılıb. Vüsal Cəbrayıl, Zəngilan və Qubadlı uğrunda gedən döyüşlərdə xüsusi fədakarlığı ilə seçilib. O, telefon əlaqələri zamanı doğmalarına ürək-dirək verər, daim irəlilədiklərini söyləyərmiş. Bacısına təcrübələrini gənc əsgərlərlə bölüşdüyünü, onlara kömək etdiyini deyən Vüsal əsgər və zabit heyəti arasında dərin hörmətə sahib idi.

Oktyabrın 22-si hər kəsin "qoca" deyə çağırdığı Vüsal Qubadlı uğrunda döyüşdə yanında şəhid olan silahdaşının pulemyotunu götürərək döyüşməyə başlayır. Şəhid olan yoldaşlarının qisasını almaq üçün dayanmadan atəş açan Vüsalın olduğu ərazinin yaxınlığı düşmən artilleriyası tərəfindən vurulurdu, lakin o, öz silahının səsindən bundan gec xəbər tutub. Düşmənin növbəti hədəfi isə onun olduğu ərazi olur. Ağır qəlpə yaraları alan Vüsal Qubadlı istiqamətində şəhadət zirvəsinə ucalıb. Şəhidimizin nəşi noyabrın 4-də ailəsinə təhvil verilib. O, Beyləqan Şəhidlər Xiyabanında uğrunda canını fəda etdiyi Vətən torpağına tapşırılıb.

Vüsal ailəli idi. Onun Tamella və Fatimə adlı iki qızı var.

Cəsarəti ilə adını tariximizin şanlı səhifəsinə əbədi yazan əsgər Abdullayev Vüsal Şakir oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" ,"Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.



## Abdullazadə Tağı İlham oğlu

Vətən müharibəsində mərdliklə döyüşərək şəhidlik məqamına yüksələn qəhrəman oğullarımızdan biri də şəhid Abdullazadə Tağı İlham oğludur. O, 1992-ci il mayın 5-də Sədərək şəhərində anadan olub. 1999-2010-cu illərdə Sədərək şəhərində 1 nömrəli tam orta məktəbdə təhsil alıb. 2010-cu ilin iyulunda Sədərək rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılan Tağı Naxçıvan Muxtar Respublikasında yerləşən "N" saylı hərbi hissəsinin kəşfiyyat bölüyündə hərbi xidmətdə olub. Hərbi qulluqda olduğu müddətdə özünü nizam-intizamlı, vəzifə borclarına layiqincə yanaşan, üzərində məsuliyyəti dərindən dərk edən bir əsgər kimi göstərib. Tağı 2012-ci il yanvar ayında hərbi xidmətini uğurla başa vurub. 2012-ci ildən isə Sədərək şəhər 1 nömrəli tam orta məktəbdə "Çağırışaqədərki hazırlıq" fənnini tədris etməyə başlayıb. Müəllim kimi fəaliyyət göstərdiyi illərdə o, gənclərə Vətən sevgisi aşılayıb, nümunəvi şagirdlər yetişdirib.

Qəhrəmanımız 2019-cu ildə sənədlərini Silahlı Qüvvələrin "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verib. Kursu uğurla bitirərək "kiçik çavuş" rütbəsi alıb. O, Naxçıvan Muxtar Respublikasında düşmənlə üzbəüz mövqedə yerləşən "N" saylı hərbi hissədə motoatıcı manqa komandiri vəzifəsində xidmətə başlayıb. 2020-ci ildə isə xidmətini Xüsusi Təyinatlı Qüvvələrin "N" saylı hərbi hissəsində davam etdirib. O, xidməti ərzində vəzifə borclarının icrasına məsuliyyətlə yanaşdığına, yüksək döyüş hazırlığı, hərbi intizam nümayiş etdirdiyinə görə dəfələrlə komandirləri tərəfindən fəxri fərmanlarla təltif edilib. Onun komandirləri Tağının çox intizamlı hərbçi olduğunu, hətta onun öhdəliyində olan işləri yoxlamağa lüzum görmədiklərini deyirlər.

Öz döyüş qabiliyyəti, igidliyi ilə seçilən Tağı oktyabrın 7-dən İkinci Qarabağ müharibəsində döyüşlərə qoşulub. O, Füzuli, Qubadlı şəhərlərinin, Hadrut qəsəbəsinin və ətraf kəndlərin işğaldan azad olunmasında böyük şücaət göstərib. Tağı təkcə döyüşçü kimi deyil, həm də komandirinin həyatının xilaskarı kimi yaddaşlara həkk olub. Onun komandiri Vətən müharibəsi qazisi, ehtiyatda olan mayor Təbriz Zeynalovun sözlərinə görə, o, sağ gözündən qəlpə yarası alaraq yaralandıqda onu təxliyə ediləcəyi yerə qədər təxminən 10 kilometrlik məsafəni Tağının köməkliyi gəlib. Komandirinin həyatını xilas edən döyüşçü oktyabrın 30-da Şuşa istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. O, noyabrın 2-də Sədərək Şəhidlər Xiyabanında dəfn edilib.

Şəhidimiz evli idi, onun Yusif adlı bir oğlu Vətənə əmanət qalıb.

Şücaəti ilə fərqlənən qəhrəmanımız kiçik çavuş Abdullazadə Tağı İlham oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Şuşanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.



## Abdullazadə Teymur Faiq oğlu

Şəhid Abdullazadə Teymur Faiq oğlu 2001-ci il iyunun 24-də Biləsuvar rayonunun Günəşli kəndində dünyaya göz açıb. O, 2008-ci ildə Fazil Hökməliyev adına Günəşli kənd ümumi orta məktəbin 1-ci sinfinə daxil olub, 2019-cu ildə həmin məktəbi bitirib. 2019-cu ilin iyulunda SHXÇDX-nin Biləsuvar rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağrılan Teymur əkiz qardaşı Seymurla birlikdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmətə başlayıb.

Düşmənlə üzbəüz postlarda xidmət edən qardaşlar daim öz üzərində işləyib, fiziki və döyüş hazırlığını inkişaf etdiriblər. Qəhrəmanımız müharibə ərəfəsində Tərtər rayonunda düşmənlə üzbəüz postda xidmətdə idi.

Ermənistanın atəşkəs rejimini pozub Azərbaycana qarşı hücum etməsi və müzəffər ordumuzun əsk-hücuma keçməsi ilə az müddətdə düşmən üzərində üstünlük qazanıldı. Ermənilərin illərlə mömkəmləndiyi postları ələ keçirildi. Teymur da əkiz qardaşı Seymur və əsgər yoldaşları ilə birlikdə döyüşə atılıb, bir neçə düşmən postunun alınmasında iştirak edib. O, Tərtər rayonunun Talış kəndində və Suqovuşan istiqamətində döyüşüb. Ailəsi ilə sonuncu dəfə oktyabr ayının 4-də əlaqə saxlayıb, böyük ruh yüksəkliyi ilə danışıb. Teymur oktyabr ayının 8-də Ağdərə istiqamətində gedən döyüşlərdə səngərlərinə düşən top mərmisindən aldığı qəlpə yarasından qəhrəmancasına şəhid olub. O, oktyabrın 29-da Günəşli kəndində uğrunda canını fəda etdiyi Vətən torpağına tapşırılıb. Şəhidimizin əkiz qardaşı Seymur isə oktyabrın 16-da başından və ayağından qəlpə yarası alıb.

Teymur subay idi.

Döyüş əməliyyatları zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə əsgər Abdullazadə Teymur Faiq oğlu ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

Hazırladı: **Ramil Hikmət**

# DÜNYANIN ƏN BÖYÜK PİRAMİDASI BİR TƏPƏNİN ALTINDA GİZLƏNİB

Söhbət piramidalardan düşdükdə adətən dünyanın ən böyük piramidaları kimi Misirdəki Giza ehramları kompleksinin adı çəkilir. Lakin Meksikadakı Çolula məbədi böyüklüyünə görə Giza piramidalarını kölgədə qoyur. Bu barədə "ArkeoNews" məlumat verib.

Otların, ağacların və torpağın altında gizlənmiş Böyük Çolula Piramidası (ispan dilində "Gran Piramide de Cholulabir") Meksikanın Puebla əyalətinin Çolula şəhərindəki bir təpənin altında yerləşir. Xeops ehramından 4 dəfə böyük olan bu piramida haqlı olaraq Yer kürəsində indiyə qədər tikilmiş ən böyük abidə kimi tanınır. Yerli sakinlər onu "Tlachihualtepetl" adlandırır. Astek dilində "əl ilə düzəldilmiş dağ" deməkdir.

Arxeoloqlar əsrarəngiz kompleksin eramızdan əvvəl 300-cü ildə tikildiyini təxmin edirlər. Buna baxmayaraq, onun kim tərəfindən tikildiyi barədə vahid fikrə gələ bilməyiblər.

İspan konkistadoru Ernan Kortes və adamları Amerika qitəsinə qədəm qoyduqda piramidanın artıq



min yaşı olardı və o, tamamilə bitki örtüyünün altında gizlənmişdi. İspan ordusu 1519-cu ildə işğal zamanı onu tamamilə gözdən qaçırmışdı.

Çolula astek imperiyasının ən mühüm şəhərlərindən biri idi. Təxminən 100 min nəfər əhalisi olan şəhər səs-küylü bazarları və gözəl malları ilə tanınırdı. Şəhər müqəddəs sayılırdı. Kortes isə onu "İspaniya hüdudları xaricindəki ən gözəl şəhər" adlandırmışdı. 1519-cu ildə Kortes və adamları şəhərə girərək əhalinin 10 faizini qətlə yetirdilər və işğallarının əlaməti olaraq nəhəng təpənin üstündə kiçik bir kilsə tikdirdilər. İglesia de Nuestra Senyora de los Remedios kilsəsi Böyük Çolula Piramidasının təpəsində yerləşirdi.

Rəvayətə görə, 1910-cu ildə yerli sakinlər dəlixana tikməyə başlayana qədər heç kim bunun piramida olduğunu bilmirdi.

Piramida dörd mərhələdə inşa olunub, hər mərhələnin fərqli üslubu var, lakin əvvəlki quruluşlar qorunub saxlanmışdır. Bəziləri hesab edir ki, bu, tikilinin tarixini qorumaq üçün məqsədli şəkildə edilmişdir. İspanların işğalınadək bura dağlara və yağış tanrısına sitayiş üçün mühüm ziyarətgah rolunu oynayırdı. Bu gün də Çolula Meksikanın ən mühüm ziyarət məkanlarından biridir və hər il keçirilən festival zamanı yüz minlərlə insanı cəlb edir.

# İSPANİYADA İSA MƏSİHİN BƏDƏNİNİN "SON DƏRƏCƏ REAL" MODELİ NÜMAYİŞ ETDİRİLİB



"catholicnewsagency"nin xəbərinə görə, İspaniya kafedralında İsa Məsihin bədəninin "son dərəcə real" modeli nümayiş etdirilib. Turin kəfənindəki izlər əsasında lateks və silikondan hazırlanmış modeldə dəri məsamələri və kirpiklərdən tutmuş qançırlar və yaralara qədər ən incə detallar canlandırılmışdır (Turin kəfəni - ölçüsü 4,4x1,1 m olan, adam təsviri daşıyan düzbucaqlı formasında kətan bürüncək. Kəfənin dəqiq mənşəi və təsvirin əmələ gəlməsi tarixçəsi məlum deyil. Geniş yayılmış fikrə görə, kəfəndə çarmıxa çəkilmiş İsa Məsihin təsviri qalmışdır).

Təxminən 75 kq ağırlığında olan model Məsihin modelini "rigor mortis" vəziyyətində təmsil edir: ayaqları və arxası bir az bükük, ovuclar ön hissədə çarpazlaşdırılmışdır. Alimlər və texnoloqlar ən müasir tədqiqat texnologiyalarından yararlandıqları üçün bilərəkdən modeldə retuş və "yalançı təvazökarlıq"dan imtina etmişlər. Sərginin qaydalarına əsasən hər bir ziyarətçi əllərini arxada birləşdirərək və tədricən modelə yaxınlaşaraq əvvəlcə bədəni bütövlükdə görə bilər, sonra hər bir detalı nəzərdən keçirə bilər.

Salamanka yepiskopu Xose Luis Retana Gonzalonun sözlərinə görə, "bu son dərəcə real görüntü teoloji qarşıdurmaya və qəlblərdə etiraza səbəb olmur, çünki Sirr onda cismani forma alır. Üstəlik, bu görüntü möminə Sirrin obrazını görməyə kömək edir və Sirrə çağırışı ehtiva edir".

Bu ideyanın reallaşmasına 15 ildən çox vaxt həsr etmiş sərginin kuratoru Alvaro Blanko açılış mərasimində öz tədqiqatına dair tarixi və elmi məlumatlar vermişdir. O, heykəlin hazırlanmasında bir qrup ustaya rəhbərlik etmişdir. "Sirli adam" sərgisi uzun müddət mədəni-bədii irs və turizm sərgilərində ixtisaslaşmış "ArtiSplendore" şirkəti tərəfindən təşkil edilmişdir. Plana görə, sərgi Salamanka kafedralında azı dörd-altı ay qalacaq. "Növbəti 20 il ərzində biz bu ekspozisiyanı dünyanın ən böyük məbədlərində göstərməyə ümid edirik", - deyə şirkətin icraçı direktoru bildirib.

# KÖLNDƏKİ BÖYÜK MƏSCİDİN MİNARƏSİNDƏN İLK DƏFƏ AZAN SƏSLƏNDİRİLİB

Oktyabrın 14-də Almaniyanın Köln şəhərindəki böyük məscidin minarəsindən ilk dəfə cümə günü azan səsi eşidilib. Azanın verilmə vaxtı və müddəti, həmçinin səsin ucalığı rəsmi qurumlarla razılaşdırılıb. Bu barədə "apnews" xəbər verib.

Ölkənin ən böyük müsəlman icmalarından birinin məskunlaşdığı Almaniyanın dördüncü böyük şəhərinin bələdiyyəsi ötən il cümə günü məscidlərdə müəzzinin namaza çağırma qaydalarını müəyyənləşdirib. Belə ki, azan cümə günləri saat 12:00-dan 15:00-a qədər beş dəqiqədən çox səslənə bilməz, eyni zamanda yaşayış məntəqələri arasında yerləşməsindən asılı olaraq hər məscid üçün səsin ucalığına limit qoyulur ki, digər vətəndaşları narahat etməsin.

Əslində, bu, ölkə ərazisində səslənən ilk azan deyil, ancaq ilk dəfə ən böyük şəhərlərdən birinin tanınmış mərkəzi məscidindən səslənməsi onu ölkə və dünya müsəlmanları üçün əlamətdar hadisəyə çevirib. Köln məscidi iki hündür minarəsi olan, işıqlarla əhatələnmiş ultra müasir



tikilidir. Şəhərin mərkəzi hissəsinin qərbində avtomobil yolunun üstündə yerləşir. Məscidin açılışı 29 sentyabr 2018-ci ildə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən olub və o vaxtdan bəri Diyanet İşleri Türk İslam Birliyinin (DİTİB) himayəsindədir.

Köln məscidi "müsəlman və xristian mədəniyyəti arasında körpü" kimi düşünülmüşdü. 2-4 min dindarın yerləşdiyi məscidin sahəsi 4500 kvadratmetrə çatır. Restoranı, ibadətxanası, kitabxanası və İslam mədəniyyəti mərkəzi olan bu İslam kompleksinin tikintisinə 40 milyon dollara yaxın vəsait ayrılıb. Şüşə günbəzi və 55 metrlik iki minarəsi olan məscid müasir Osmanlı memarlıq üslubunda tikilib.

Şəhərin meri Henriette Reker keçənilki çıxışında bildirmişdi ki, əksəriyyəti Almaniyada doğulmuş müsəlmanlar çoxdan Kölndə kök salıblar və şəhər icmasının qəbul edilən bir hissəsinə çevriliblər. "Onların böyük məscidi köhnə nəhəng katolik kilsəsi ilə dinc yanaşı mövcuddur. Əgər indi şəhərimizdə müəzzinin çağırışı ilə kilsə zəngləri səs-səsə verirsə, bu o deməkdir ki, Köln mədəniyyətlərin və dinlərin müxtəlifliyini yüksək qiymətləndirir və bunu üzvi şəkildə qəbul edir", - deyə Reker vurğulayıb.

# AVSTRİYADA "AÇIQ MƏSCİD GÜNÜ" KEÇİRİLİB

Müsəlman həyat tərzi ilə yaxından tanış olmaq üçün Avstriya İslam Etiqad icması oktyabrın 23-də "açıq məscid günü" təşkil edib.

Avstriyanın yeddi federal əyalətində ümumilikdə on məscidin iştirak etdiyi layihə çərçivəsində İslam dini və müsəlmanların həyat tərzi ilə tanış olmaq, eyni zamanda, dialoq üçün imkan yaranacaq.

İcmanın büro rəhbəri Edina Husoviç mətbuat açıqlamasında bildirib ki, maraqlananlar qeyd edilən mövzularla yanaşı, bir məscidlə daxildən tanış olmaq imkanı əldə edəcək, dünyəvi dinləri birləşdirən ortaq dəyərlər barədə məlumat alacaq və həmçinin ziddiyyət hesab edilən mövzularda da maarifləndirici izahatlarla tanış ola biləcəklər. O bildirib ki, 1912-ci ildən İslam dini Avstriyada rəsmi statusa malikdir və 110 ildən bəri müsəlmanlar Avstriya ictimaiyyətinin tərkibində mühüm rol oynayırlar.

Həmçinin qeyd edilib ki, ilk dəfə təşkil edilən layihənin məqsədi eyni ərazidə yaşayan insanlar arasındakı baryerləri aradan qaldırmaq, fərqli din, mədəniyyət, dünyagörüşü və etnik mənsubiyyətə malik insanları bir araya gətirərək, vahid dünyanın sakinləri və hamının ortaq cəhətlərlə bağlılığını təbliğ etməkdir.



# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, insanların mənəvi baxımdan daha sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini oktyabr ayı ərzində də davam etdirmişdir.*



Cari ay ərzində bu qəbildən olan tədbirlər:

**3 oktyabr** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı rayonu Gənclər Evi sosial xidmət müəssisəsi, Saatlı rayonu Peşə liseyi və rayon Gənclər və İdman İdarəsinin (GİI) birgə təşkilatçılığı ilə "Dini radikalizm və ekstremizmə qarşı mübarizədə gənclərin rolu" mövzusunda;

**4 oktyabr** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Kürdəmir Rayon İcra Hakimiyyəti (RİH), rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Vətən müharibəsindəki qələbəmizdə milli-mənəvi dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Gəncə şəhər Uşaq İncəsənət Məktəbinin birgə təşkilatçılığı ilə "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və Balakən rayon qazılığının birgə təşkilatçılığı ilə;

**6 oktyabr** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Azərbaycan Dövlət Aqrar Universitetinin birgə təşkilatçılığı ilə Gəncə şəhərində "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Naftalan şəhər Peşə məktəbində "Dini radikalizmə və ekstremizmə qarşı mübarizədə gənclərin rolu" mövzusunda;

**7 oktyabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Balakən rayon Hənifə kənd Abbas Səhhət adına tam orta məktəbində "Hamılıqla narkotiklərə yox deyək!" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Göyçay rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə "Zərərli vərdişlər və onların fəsadları" mövzusunda;



**10 oktyabr** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə İdman Liseyində "Yeniyetmə və gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH, rayon GİI və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Vətən Müharibəsi Qəhrəmanı İsmayıl Səmədov adına Zaqatala şəhər 5 №-li tam orta məktəbində "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzusunda;

**11 oktyabr** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, Goranboy RİH və Goranboy rayonu üzrə Təhsil Sektorunun birgə təşkilatçılığı ilə "Radikalizmlə mübarizədə təhsil amilinin rolu" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Kürdəmir şəhər "İmam Rza" məscidinin birgə təşkilatçılığı ilə "Dini radikalizmlə mübarizədə dini icmaların rolu" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə Vətən Müharibəsi şəhidi Turan Muradovun xatirəsinə həsr olunmuş "Şəhidlik-vətənpərvərliyin ən ali məqamıdır" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Göyçay RİH, rayon Polis Şöbəsi, Mərkəzi Aran Regional Təhsil İdarəsinin Göyçay rayonu üzrə Sektorunun birgə təşkilatçılığı ilə "Dini radikalizm, zərərli vərdişlər və erkən nikah" mövzusunda;

**12 oktyabr** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Samux şəhər 2 saylı tam orta məktəbində "Narkomaniya və radikalizmin fəsadları" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Dövlət Sərhəd Xidmətinin Xudat şəhərində yerləşən hərbi hissəsində "Dini radikalizm və ekstremizmə qarşı mübarizədə hərbi qulluqçuların yeri və rolu" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax rayon Şotavar kənd tam orta məktəbində "Qızların təhsil almasının önəmi: dini qaynaqlar nə deyir?" mövzusunda;

**13 oktyabr** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Naftalan şəhər 1 saylı tam orta məktəbində "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Ağdaş rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin birgə təşkilatçılığı ilə Mərkəzi Kitabxanada "Zəfərə aparan yol: milli və dini həmrəylik" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Sumqayıt Şəhər Baş Polis İdarəsinin birgə təşkilatçılığı ilə Sumqayıt şəhəri Hacı Zeynalabdin Tağıyev qəsəbəsi 19 saylı tam orta məktəbdə "Dini radikalizm ideoloji təhlükə kimi" mövzusunda;




**14 oktyabr** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Göygöl RİH-in birgə təşkilatçılığı ilə Aşıq Şəmşir adına Göygöl 7 illik Uşaq Musiqi Məktəbində "Dini radikalizm və ekstremizmin təhlükələri" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Sabirabad RİH-in birgə təşkilatçılığı ilə 18 Oktyabr-Müstəqilliyin Bərpası Günü münasibətilə dəyirmi masa; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi və Şirvan Gənclər Evinin birgə təşkilatçılığı ilə Şirvan şəhərində "Dini radikalizmə qarşı mübarizədə gənclərin rolu" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi, Tərtər RİH və rayon Təhsil Sektorunun birgə təşkilatçılığı ilə Tərtər şəhər 6 saylı tam orta məktəbində "Yeniyetmə və gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq" mövzusunda;

**17 oktyabr** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Daşkəsən şəhər Heydər Əliyev Mərkəzində "Dini radikalizmlə mübarizə" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Siyəzən rayon GİI-nin birgə təşkilatçılığı ilə "Dövlət rəmzləri müstəqilliyimizin əsası kimi" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialının birgə təşkilatçılığı ilə 18 Oktyabr-Müstəqilliyin Bərpası Gününün 31-ci ildönümü münasibətilə; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Kürdəmir RİH-in birgə təşkilatçılığı ilə 18 Oktyabr-Müstəqilliyin Bərbası Gününün 31-ci ildönümü münasibətilə; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Yevlax Şəhər Gənclər Evi sosial xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə "Azərbaycan Dövlət Müstəqilliyinin bərpası-31: dəyərlərimizin təminatı" mövzusunda;

**18 oktyabr** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və İsmayıllı rayon Heydər Əliyev Mərkəzinin birgə təş-



kilatçılığı ilə "Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Şamaxı bölgəsi üzrə qazılığının birgə təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlərin təbliğində din xadimlərinin rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə İmamzadə Ziyarətgah kompleksində bölgədə fəaliyyət göstərən rəsmi din xadimləri və dini icmaların fəaliyyətinə həsr olunmuş tədbir;

**19 oktyabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH, rayon Gənclər Evi sosial xidmət müəssisəsi, rayon GİI və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Balakən rayonu Talalar 2 saylı kənd tam orta məktəbində "Xalqımızın tolerantlıq ənənələrinin və multikulturalizm siyasətinin milli həmrəyliyimizin möhkəmlənməsindəki önəmi" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH, II Nügədi kəndi "Hacı Seyid Siracəddin" məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda;

**20 oktyabr** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və Qobustan Gənclər Evinin birgə təşkilatçılığı ilə "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax rayonu Qum kənd tam orta məktəbində "Uşaqların təhsildən yayındırılmasına qarşı mübarizədə dini icmaların rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Samux rayon Polis İdarəsinin birgə təşkilatçılığı ilə Samux rayon Həsən bəy Zərdabi adına Çobanabdallı kənd tam orta məktəbində "Zərərli vərdişlər, narkomaniya və dini radikalizm, əsrimizin bəlaları" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Kürdəmir RİH-in birgə təşkilatçılığı ilə "Erkən nikahın qarşısının alınmasında dini icmaların rolu" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab RİH-in birgə təşkilatçılığı ilə "Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Yardımlı rayon GİI və rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə N.B.Cəfərov adına Avaş kənd tam orta məktəbində "Zərərli vərdişlərə qarşı mübarizədə təhsilin rolu" mövzusunda;



**21 oktyabr** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Siyəzən rayon GİI və Siyəzən şəhər 6 saylı məktəb-liseyin birgə təşkilatçılığı ilə "Vətən müharibəsindəki qələbəmizdə milli-mənəvi dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi, Şəmkir RİH və Qazax-Tovuz Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə "Dinin siyasiləşdirilməsi: milli təhlükəsizliyə və mənəvi dəyərlərə təhdid kimi" mövzusunda; DQİDK və Ədliyyə Nazirliyi Penitensiar Xidməti arasında 2022-ci il üçün təsdiq edilmiş birgə Tədbirlər Planı çərçivəsində məhkumların asudə vaxtlarının səmərəli keçirilməsi, vicdan və dini etiqad azadlığının təmin olunması istiqamətində

davamı səh. 11

# QISA-QISA

əvvəli səh. 10

"Xeyirxahlıq, yardım, mərhəmət və doğruluğun insan həyatında rolu"; "Uşaqların mənəvi inkişafının onların gələcəyinə təsiri" mövzularında;

**22 oktyabr** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Uşaqların təhsildən yayındırılmasına qarşı mübarizədə dini icmaların rolu" mövzusunda;

**25 oktyabr** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlərin təbliğində din xadimlərinin rolu" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab şəhər Peşə Liseyinin birgə təşkilatçılığı ilə "Yeniyetmə və gəncləri dini radikalizm və ekstremizmin təsirlərindən qoruyaq" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Samux rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Samux rayon Qarabağlar kənd tam orta məktəbində "Narkomaniyaya qarşı mübarizə" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, Göygöl RİH və rayon Gənclər Evinin birgə təşkilatçılığı ilə Göygöl Peşə təhsil məktəbində "Dini radikalizmə qarşı mübarizə" mövzusunda;

**26 oktyabr** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Xaçmaz RİH-in birgə təşkilatçılığı ilə rayonun Xudatkənd kənd məscidində "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, rayon GİI,



Saatlı rayonu Gənclər Evi sosial xidmət müəssisəsi və Saatlı şəhər V.Əsgərov adına 4 saylı tam orta məktəbin birgə təşkilatçlığı ilə "Uşaq hüquqları aylığı" çərçivəsində "Uşaq hüquqlarının qorunması: erkən nikah problemi və ona qarşı mübarizə yolları" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Kürdəmir RİH-in birgə təşkilatçılığı ilə "Uşaq hüquqlarının qorunması: erkən nikah problemi və onlara qarşı mübarizə" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Mingəçevir Tibb Kollecində "Uşaq hüquqlarının qorunması: erkən nikah problemi və ona qarşı mübarizə yolları" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Uşaq hüquqlarının qorunması: erkən nikah problemi və ona qarşı mübarizə yolları" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin Cəlilabad Regional Mərkəzi və Lənkəran-Astara Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə M.Cəbrayılov adına Şovu kənd tam orta məktəbində "Uşaq və yeniyetmələr arasında milli-mənəvi dəyərlərimizin təbliği" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lənkəran şəhər GİI, Lənkəran-Astara Regional Təhsil İdarəsi və İnsan Hüquqları üzrə Müvəkkilin Cənub Regional Mərkəzinin birgə təşkilatçılığı ilə "Dini radikalizm və ekstremizmə qarşı mübarizədə gənclərin rolu" mövzusunda;

**27 oktyabr** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Siyəzən rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Vətənpərvərlik ən mühüm mənəvi dəyərdir" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi, Şəki Şəhər İcra Hakimiyyəti və Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Baş Göynük kənd 1 saylı tam orta məktəbində "Dini radikalizm və onunla mübarizə" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Masallı rayon GİI, rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Masallı şəhəri İntiqam Əsgərli adına 3 saylı tam orta məktəbində "Gələcəyimizi birgə düşünək- narkomaniyaya yox deyək!" mövzusunda baş tutub.

# İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI - 2021

## İSLAMABAD

Pakistan İslam Respublikası Çin, İran, Əfqanıstan, Hindistan, Ərəb dənizi ilə həmsərhəd olan Cənubi Asiya dövlətidir. Hazırda Pakistanda 230 milyon əhali yaşayır. Bu sayla o, dünyada beşinci yerdə qərarlaşır. Həmçinin əhali sayına görə ikinci ən böyük müsəlman dövlətidir.

Araşdırmalar zamanı Pakistan ərazisində bir neçə qədim mədəniyyətin qalıqlarına rast gəlinmişdir. Bunu Neolit və Tunc dövrünə məxsus abidələr, yaşayış yeləri və digər arxeoloji tapıntılar sübut edir. Tarixin müəyyən vaxtlarında bu ərazilərdə Əhəmənilər imperiyası, Makedoniyalı İsgəndər, Mauriya imperiyası, Əməvilər sülaləsi, Qupta imperiyası, Dehli sultanlığı, Monqol imperiyası, Böyük Moğol imperiyası, Dürranilər imperiyası və Britaniya imperiyası kimi nəhəng imperiyalar ağalıq etmişdir.

Məhəmməd Əli Cinnahın başçılıq etdiyi Pakistan azadlıq hərəkatının qalib gəlməsi ilə Pakistan dövləti 1947-ci ildə müstəqillik əldə etmişdir. Pakistan dil və etnik müxtəlifliyi baxımından olduqca zəngin dövlətdir. Ölkə 1956-cı ildə qəbul etdiyi konstitusiya ilə İslam respublikası elan edilmişdir. Pakistan adı urdu və fars dillərində hərfi mənada "paklar diyarı" mənasını verir.

Pakistan İslam Respublikasının paytaxtı olan İslamabad şəhəri 1960-cı illərdə salınmışdır. 1950-ci illərdə paytaxt Karaçi şəhəri strateji baxımdan təhlükəsiz hesab edilmədiyindən yeni şəhərin salınmasına ehtiyac duyulmuşdur. Yeni paytaxt tikilənədək isə Ravalpindi şəhəri müvəqqəti paytaxt elan olunmuşdur. 1960-cı ildə layihə tamamlanmış, strateji yeri, iqlim xüsusiyyətləri və təbii gözəlliyi nəzərə alınaraq Potvar yaylasında yeni paytaxtın qurulmasına başlanılmışdır. Yunan memarı Konstantinos Apostolos Doksiadis tərəfindən hazırlanmış baş planda şəhər inzibati ərazi, yaşayış yerləri, o cümlədən təhsil, sənaye, ticarət mərkəzləri daxil olmaqla səkkiz zonaya bölünmüşdür.

Asiyada insanların erkən məskunlaşdığı yerlərdən biri də İslamabad və ətraf əraziləridir. Pakistanın şimal-şərqində, Hind çayı ilə Celam çayı arasında yerləşən Potvar yaylasında 100.000-500.000 il əvvələ aid bəzi arxeoloji faktlar, sonrakı dövrlərə aid saxsı məmulatları və qablar aşkar edilmişdir. Həmçinin e.ə 5000-ci ilə aid qalıqlar və insan kəllələri tapılmışdır ki, bu da bölgənin Svan çayının sahillərində məskunlaşan və bölgədə kiçik icmalar yaradan Neolit xalqlarının yaşadığını göstərir. Şəhər tarixən Orta Asiya ölkələrini, Hindistan yarımadasını və Tibeti birləşdirən ən mühüm ticarət yollarının kəsişdiyi yerdə yerləşir. Hazırda İslamabadda təxminən



1 milyon 200 min nəfər yaşayır. Müasir dövrdə salınan şəhərdə inzibati binalar, yaşayış yerləri, ticarət, sənaye, təhsil mərkəzləri, turistləri cəlb edəcək əyləncə məkanları, milli parklar, muzeylər və ibadət yerlərini görmək olar. Pakistan əhalisinin 97%-ni müsəlmanlar təşkil etdiyinə görə paytaxtda və başqa şəhərlərdə tarixi və müasir üslubda tikilmiş məscidlərə rast gəlmək mümkündür.

1966-cı ildə İslamabadda inşa edilən ilk məscid Qırmızı məsciddir. O, həm də 1986-cı ildə Feysal məscidi tikilənədək iyirmi il ərzində şəhərin ən böyük məscidi olmuşdur. Məscidin adı divarlarının və interyerinin qırmızı rəngdə olması ilə əlaqələndirilir.

Cənubi Asiyanın və Pakistanın ən böyük məscidi olan Feysəl paytaxt İslamabadda yerləşir. Məscidin adı tikintisini maliyyələşdirmiş Səudiyyə kralı Feysəl ibn Əbdüləziz əl-Səudla bağlıdır. Məscid 1976-1986-cı illərdə inşa olunmuşdur. Məscidin sahəsi 130 min $m^2$-dir. Məscidin daxilində 10 min, ümumilikdə isə eyni vaxtda 74 min insan ibadət edə bilər. Türk memar Vedat Dalokay tərəfindən dizayn edilən məscid quruluşuna görə bədəvi çadırına bənzəyir. Məscid Feysəl prospektinin şimalında, şəhərin ən şimal ucunda və Himalay dağlarının ən qərb ətəkləri olan Marqalla təpələrinin ətəyində yerləşir.

Dörd minarəli məscidin ənənəvi məscidlərdən fərqi qübbəsinin olmaması və daxili interyeridir. Minarələrin hər birinin hündürlüyü 90 m-dir, forması türk memarlığından götürülmüşdür. Məscidin əsas zalı ağ mərmər, kalliqrafiya nümunələri və mozaikalarla bəzədilmişdir. Mozikalar və kalliqrafiya örnəkləri pakistanlı rəssam Sadequain tərəfindən işlənmişdir. Buradakı qəndillər türk üslubuna xasdır və öz möhtəşəmliyi ilə seçilir. Əvvəllər İslamabad Beynəlxalq İslam Univeristeti burada fəaliyyət göstərsə də, 2000-ci ildə köçürülmüşdür. Məsciddə hələ də mühazirə zalları, kafe, kitabxana mövcuddur. Məscidin inşasına 120 milyon dollar vəsait xərclənib.

İslamabadda digər məşhur məscid əl-Kövsərdir. Məscidin tikintisində və bəzədilməsində müasir İslam memarlığından məharətlə istifadə edilib. Ölkədə ən böyük günbəzi olan məsciddə eyni vaxtda 2500 insan ibadət edə bilir. Məscidin günbəzi yer səviyyəsindən 30 metr hündürlükdədir, diametri isə 15 metrdir.

Burada daha çox şiələr ibadət edir. Məsciddə 130 $m^2$ ölçülü ağac materialının üzərində "İnsan" surəsi xüsusi xəttatlıqla həkk olunub. Məsciddə, həmçinin "Yasin" surəsi, Allahın 99 adı və 14 məsumun adları yazılan lövhələri də görə bilərik. Məscidin tavanının mərkəzində çilçıraq quraşdırılıb, o, 72 min Belçika kristalından və 313 işıqdan ibarətdir, 1,2 ton ağırlığındadır. Məscidin ətrafında təhsil kompleksi var. Burada şəriətlə bərabər, dünyəvi elmlər də tədris edilir.

İslamabadın mərkəzində yerləşən Əbu Hüreyrə, Əbu Bəkr, əl-Ehsan, Əmmar İbn Yasir və bir çox məscidlərin adlarını da çəkmək olar.

İslamabad 2021-ci ildə İslam mədəniyyəti paytaxtı seçilmişdir.

Hazırladı: **Tural Vəlizadə**

# İSLAM DİNİNƏ AİD İBADƏT YERLƏRİNDƏ (MƏSCİDLƏR) VAKANT VƏZİFƏLƏRİN TUTULMASI ÜÇÜN NÖVBƏTİ MÜSAHİBƏ ELAN EDİLİR

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi İslam dininə aid ibadət yerlərində (məscidlər) aşağıdakı vakant vəzifələrin tutulması üçün müsahibə elan edir:

**1. Suraxanı rayonu, Yeni Suraxanı qəsəbəsi "Heydər" məscidi – imam vəzifəsi**
**2. Suraxanı rayonu, "Fatimeyi-Zəhra" məscidi – Qadın dini ayinlərin icraçısı vəzifəsi**
**3. Xəzər rayonu, Zirə qəsəbəsi "Cümə" məscidi – imam vəzifəsi**
**4. Sabunçu rayonu, Sabunçu qəsəbə məscidi – imam müavini vəzifəsi**
**5. Yasamal rayonu, "Hacı Cavad" məscidi – imam vəzifəsi**
**6. Xızı qəsəbə məscidi – imam müavini vəzifəsi**
**7. Sumqayıt şəhəri, "Cümə" məscidi – Qadın dini ayinlərin icraçısı vəzifəsi**
**8. Gəncə şəhəri, Bala Bağman "Fatimeyi-Zəhra" məscidi – Qadın dini ayinlərin icraçısı vəzifəsi**
**9. Şəki şəhəri, "Mərkəzi Cümə" məscidi – Qadın dini ayinlərin icraçısı vəzifəsi**
**10. Zaqatala şəhəri, "Cümə" məscidi – Qadın dini ayinlərin icraçısı vəzifəsi**
**11. Qax rayonu, Ləkit kənd "Cümə" məscidi – imam müavini vəzifəsi**
**12. Lənkəran rayonu, Separadi kənd məscidi – imam müavini vəzifəsi**
**13. Lənkəran rayonu, Böyük bazar "Cümə" məscidi – Qadın dini ayinlərin icraçısı vəzifəsi**
**14. Lerik şəhəri "Cümə" məscidi – imam müavini vəzifəsi**
**15. Lerik rayonu, Gürdəsər kənd məscidi – imam müavini vəzifəsi**
**16. Astara rayonu, Kijəbə qəsəbəsi Lovayın kənd məscidi – imam müavini vəzifəsi**
**17. Astara rayonu, Şuvi kənd məscidi – imam müavini vəzifəsi**
**18. Masallı rayonu Şıxlar kənd məscidi – imam müavini vəzifəsi**
**19. Cəlilabad şəhəri, "Şəhidlər" məscidi – imam vəzifəsi**
**20. Xaçmaz şəhəri, "Təzə şəhər" məscidi – imam müavini vəzifəsi**
**21. İmişli şəhəri, "Məşədi Həbib" məscidi – imam vəzifəsi**
**22. İmişli şəhəri, "Cümə" məscidi – imam müavini vəzifəsi**
**23. İmişli rayonu, Allahmədətli kənd "Əhli-beyt" məscidi – imam müavini vəzifəsi**
**24. Saatlı şəhəri, "Şeyx Yusif" məscidi – imam vəzifəsi**
**25. Saatlı rayonu, Mustafabəyli kənd "İmam Əli" məscidi – imam müavini vəzifəsi**
**26. Sabirabad rayonu, Qaragüney kənd "İmam Hüseyn" məscidi – imam müavini vəzifəsi**
**27. Salyan rayonu, Çuxanlı kənd "Hacı Cəbrayıl" məscidi – imam müavini vəzifəsi**
**28. Biləsuvar şəhəri, "Cümə" məscidi – imam müavini vəzifəsi**
**29. Biləsuvar rayonu, Nərimankənd kəndi "İmam Hüseyn" məscidi – imam müavini vəzifəsi**
**30. İsmayıllı rayonu, Lahıc qəsəbəsi "Bədöyün" məscidi – imam müavini vəzifəsi**
**31. Ağsu rayonu Pirhəsənli kənd məscidi – imam müavini vəzifəsi**
**32. Quba şəhəri, "Hacı Cəfər" məscidi – Qadın dini ayinlərin icraçısı vəzifəsi**
**33. Quba şəhəri, "Cümə" məscidi – Dini ayinlərin icraçısı-müəzzin vəzifəsi**
**34. Quba rayonu, Zərdabi qəsəbə məscidi – imam müavini vəzifəsi**
**35. Quba rayonu, Digah kənd məscidi – imam müavini vəzifəsi**
**36. Xaçmaz rayonu, Xudat şəhəri "İmam Hüseyn" məscidi – imam müavini vəzifəsi**
**37. Yardımlı şəhər məscidi – imam vəzifəsi**
**38. Yardımlı şəhəri, Əsədabad məhəllə məscidi – Dini ayinlərin icraçısı-müəzzin vəzifəsi**
**39. Ağcabədi rayonu, Təzəkənd kənd məscidi – imam müavini vəzifəsi**
**40. Bərdə şəhər "Cümə" məscidi – imam vəzifəsi**
**41. Şirvan şəhəri, "İmam Zeynalabdin" məscidi – imam vəzifəsi**
**42. Şəmkir rayonu, Çinarlı qəsəbə məscidi – imam müavini vəzifəsi**
**43. Şəmkir rayonu, Düyərli kənd məscidi – imam müavini vəzifəsi**
**44. Zərdab şəhəri "Cümə" məscidi – imam vəzifəsi**

Müsahibədə iştirak etmək istəyən namizədlər 25 oktyabr 2022-ci il tarixindən 25 noyabr 2022-ci il saat 18:00-dək aşağıdakı sənədləri elektron qaydada sened@scwra.gov.az adresinə və ya kağız daşıyıcıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə (Bakı şəhəri, Səbail rayonu, Əhməd Cavad küçəsi 16, AZ 1001) təqdim etməlidirlər:

- *Şəxsiyyət vəsiqəsinin surəti və ya bu barədə dövlət informasiya ehtiyatlarından çıxarış;*
- *Tərcümeyi-hal;*
- *Dini ali və orta ixtisas təhsil haqqında sənədin notarial qaydada təsdiqlənmiş surəti və ya bu barədə dövlət informasiya ehtiyatlarından çıxarış;*
- *Sağlamlıq haqqında arayış;*
- *Narkoloji dispanserdən arayış;*
- *Ruhi-əsəb dispanserindən arayış;*
- *Məhkumluq barədə arayış;*
- *Foto (3x4) (4 ədəd);*
- *Ərizə.*

Tələb olunan sənədlərdən əlavə namizəd özünün elmi-pedaqoji və yaradıcılıq fəaliyyəti barədə sənədləri də təqdim edə bilər.

Müsahibədə iştirakla bağlı sənədlərin qəbulu üçün müəyyən edilmiş son müddət bitdikdən sonra müsahibənin keçirilməsi vaxtı və yeri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin internet saytında yerləşdiriləcəkdir.

**Əlaqə nömrələri:**
(012) 497 02 53 (012) 437 31 15
(012) 492 62 29 (077) 209 60 70

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR (DİNİ QURUMLARIN DÖVLƏT REYESTRİ) MƏLUMATLARI

**"Şəki rayonu Zunud kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 24 aprel 2015-ci il
Qeydiyyat №-si: 100115C – 575

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən İsayev Hikmət Əhməd oğlu, Paşayev Əhməd Hümmət oğlu, Ziyəddinov Aydın Ziyəddin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Abdurahmanov Niyazi Ərrəhman oğlu, Abdurahmanov Səməndər Niyazi oğlu, İsayev Səxavət Hikmət oğlu, Haşımov Yusif Araz oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

